
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 noyabr
2026-cı il,
cümə
№ 212 (7279)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

Azərbaycanın hərbi-diplomatik Qələbəsinin təntənəsi



Bax səh. 3

Prezident İlham Əliyev Vyetnamda rəsmi səfərdədir



Strateji Tərəfdaşlıq haqqında Xartiya - ABŞ-Azərbaycan münasibətlərinin yeni mərhələsi

Bax səh. 2

“Qara qutu”su yoxa çıxan helikopter qəzası...

Tale elə gətirib ki, Azərbaycan müstəqilliyinin ilk illərindən qonşu Ermənistanın işğalçılıq siyasəti ilə üzüzə qalıb. Təxminən üç onilliyi əhatə edən işğal dövründə ermənilər ən qəddar formada sayı-hesabı bilinməyən müharibə cinayətləri törədiblər.

Belə cinayətlərdən biri də 35 il bundan əvvəl tarixin bu günündə -1991-ci il noyabrın 20-də baş verib. Həmin gün Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında faciəvi hadisə yaşanıb - içərisində Azərbaycanın görkəmli ziyalılarının və dövlət xadimlərinin olduğu hərbi helikopter vurularaq partladılıb.

Faciə nəticəsində vertolyotda olan 22 nəfərin hamısı həlak olub. Onların arasında Azərbaycanın daxili işlər naziri Məhəmməd Əsədov, baş prokuror İsmət Qayıbov, Dövlət katibi Tofiq İsmayılov, onun köməkçisi Rafiq Məmmədov, SSRİ Ali Sovetinin deputatları Vəli Məmmədov, Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Cəfərov, jurnalist Alı Mustafayev, operator Fəxrəddin Şahbazov, işıqçı Arif Hüseynzadə, bundan başqa Rusiya və Qazaxıstan hərbi müşahidəçiləri də olublar.

Aradan 35 il ötüb. Bununla belə, hələ Qarakənd faciəsinin bütün qaranlıq məqamlarını aydınlaşdırmaq mümkün olmayıb. Çoxlu sayda şübhə dolu məqamlar var. Əvvəla, onu qeyd edək ki...

Bax səh. 4



Bax səh. 4

YAP Mərkəzi Aparatında görüş

Növbəti uğur!

Bax səh. 5

Azərbaycan və Gürcüstan iqtisadi əlaqələri dinamik inkişaf edir

Bax səh. 3

Tarixdə ilk dəfə...

Bax səh. 7

Tamamilə qəbuledilməzdir!

Fransa Azərbaycana qarşı qərəzli mövqeyindən əl çəkmir. Belə ki, Fransanın Avropa və Xarici İşlər Nazirliyində xarici ticarət və iqtisadi cəlbedicilik məsələləri üzrə səlahiyyətli nazir Nikola Forissye parlamentin iclasında deputatların suallarını cavablandırarkən Azərbaycana qarşı əsassız fikirlər səsləndirib. Xatırladaq ki, bugünlərdə Marseli təmsil edən senator Karlotti Fransa hökumətinin Qarabağdan “məcburi köçürülmüş sakinlərə göstərdiyi dəstək, eləcə də Bakıda saxlanılan erməni məhkumların taleyi ilə bağlı” sual verib.

Senatorun sualına cavab olaraq, Forissye 14 yanvar 2026-cı ildə dörd erməni məhkumun vətəninə qaytarılmasını “alqışlayıb” və digər həbsdə olan erməni cinayətkarların azad edilməsinə “çağırıb”. O iddia edib ki, Qarabağda yaşamış ermənilər qayıtmaq istəyərsə, onlar bunu sərbəst və təhlükəsiz şəraitdə həyata keçirə bilməlidir.

Azərbaycanın Xarici İşlər Nazirliyi isə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin və xarici ticarət və iqtisadi cəlbedicilik məsələləri üzrə səlahiyyətli nazirinin ölkəmizə qarşı iddialarını tamamilə qəbuledilməz hesab edir. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, Fransanın nümayiş etdirdiyi selektiv yanaşma, birtərəfli qiymətləndirmələri və siyasi motivli narrativlərə əsaslanmaqda davam etməsi regionda sülh gündəliyinin irəliləməsinə xidmət etmir. Onun sözlərinə görə, 2023-cü ilin sentyabr ayında Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri...

Bax səh. 4



Bax səh. 5



Bax səh. 7

Azərbaycan Cənubi Qafqazda əsas logistika və energetika habıdır

Prezident İlham Əliyev Vyetnam Xəbər Agentliyinə müsahibə verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Xəbər Agentliyinə (VNA) müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

- Hörmətli cənab Prezident, ikitərəfli əməkdaşlığın tarixində yeni mərhələnin başlanması ilə əlamətdar olacaq Vyetnama qarşıdakı rəsmi səfəriniz ərəfəsində Siz Azərbaycan ilə Vyetnam arasında siyasi dialoqun hazırkı vəziyyətini necə xarakterizə edərdiniz?

- Azərbaycan-Vyetnam münasibətlərinin təxminən yetmişillik tarixindən bəhs edərkən, hər şeydən əvvəl, bu dostluğun köklərinə qayıtmaq və onun əsasını qoymuş iki böyük lideri səmimi minnətdarlıq hissi ilə xatırlamaq istəyirəm.

Sözsüz ki, başlanğıc nöqtəsi 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Bakıya unudulmaz səfəri idi. 1983-cü il əsl sıçrayışla əlamətdar oldu. Həmin vaxt Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin başçılığı ilə sovet nümayəndə heyəti Vyetnama səfər etdi. Azərbaycan xalqının Ümummilli Liderinin təşəbbüsü ilə bu səfərin müddəti səkkiz günə qədər uzadıldı və ölkənin əsas regionlarını əhatə etdi. Həmin vaxt əldə olunan razılaşmalar Vyetnam iqtisadiyyatının inkişafına güclü təkan verdi və çoxillik əməkdaşlığın istiqamətini müəyyənləşdirdi.

Möhkəm, zamanın sınaqlarından çıxmış dostluğa əsaslanaraq, biz əlaqələrin gücləndirilməsini və qarşılıqlı faydalı tərəfdaşlığın genişləndirilməsini ardıcıl şəkildə davam etdirdik. 2014-cü ildə mənim Vyetnama ilk dövlət səfərim baş tutdu, artıq 2015-ci ilin mayında isə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanq Azərbaycana cavab səfəri etdi.

Keçən ilin mayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın Azərbaycana ilk dövlət səfəri dövlətlərarası münasibətlərimizdə yeni fəsil açdı. Aparılan konstruktiv danışıqlar energetika və investisiyalardan müdafiə və kibertəhlükəsizliyə qədər istiqamətlərin geniş spektrini əhatə etdi. Strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın - Azərbaycan-Vyetnam əlaqələrini keyfiyyətcə yeni səviyyəyə qaldıran mühüm sənədin qəbul edilməsi məntiqi nəticə oldu. Bu səfər tərəfdaşlığın dərinləşdirilməsi və onun praktiki məzmunla zənginləşdirilməsi üzrə qarşılıqlı marağı bir daha nümayiş etdirdi.

Dövlət başçılarının siyasi təmasları ilə paralel olaraq, hökumətlərarası komissiyaların, müvafiq idarələrin, həmçinin parlamentlərarası dostluq qruplarının xətti ilə səmərəli dialoq aparılır. Bundan əlavə, iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Vyetnam Kommunist Partiyası arasında sıx əməkdaşlıq inkişaf edir.

Ölkələrimiz arasında ikitərəfli dialoq ilə yanaşı, beynəlxalq platformalarda, xüsusilə BMT, Qoşulmama Hərəkatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində də sıx qarşılıqlı əlaqə qurulub.

Azərbaycan ərazi bütövlüyü, ölkəmizin suverenliyi və onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı məsələsində göstərilən dəstəyə, həmçinin 44 günlük Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi möhkəm və ədalətli mövqeyinə görə Vyetnama dərindən minnətdardır.

Sözsüz ki, bütün bunlar Bakı ilə Hanoy arasında çoxillik siyasi dialoqun bərabərhüquqluluq və qarşılıqlı maraqların nəzərə alınması əsasında dayanıqlı şəkildə dərinləşməsini göstərir.

- İqtisadi-ticari münasibətlərin əsas nəticələri, istiqamətləri və inkişaf potensialı hansılardır?

- Azərbaycan-Vyetnam iqtisadi-ticari əlaqələri ardıcıl şəkildə inkişaf edir. 2025-ci ilin yekunlarına görə, iki ölkə arasında ticarət dövriyyəsi 150 milyon dollardan artıq olub. Bununla yanaşı, bu göstərici hələ ki, real imkanları əks etdirmir: hər iki tərəf qarşılıqlı ticarətdə əhəmiyyətli artım üçün böyük potensiala malikdir.

Sovet İttifaqı dövründən bəri tarixən tərəfdaşlığımızın təməlini təşkil edən neft sektoru qarşılıqlı fəaliyyətin əsas istiqaməti statusunu qoruyub saxlayır. Bu kontekstdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Neft və Qaz Şirkəti (PetroVietnam) arasında əlaqələrin dərinləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. 2025-ci ildə imzalanmış Anlaşma Memorandumu neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi, texniki xidmətlər və mütəxəssis hazırlığı kimi sahələrdə əməkdaşlığı nəzərdə tutur.

Vyetnam biznesinin Azərbaycan iqtisadiyyatında iştirakı da ikitərəfli münasibətlərin mühüm tərkib hissəsidir. Tikinti və infrastrukturun inkişafı, həmçinin Günəş və külək enerjisi sahələrində layihələrin həyata keçirilməsində maraqlı olduğunu bildirən "ROX Group" bunun bariz nümunəsidir. 2026-cı ilin sentyabrında Bakıda keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "ROX Group" ilə müvafiq sənədlər imzalanıb.

Tranzit daşımaları sahəsində də müsbət dinamika müşahidə olunur. 2026-cı ilin yanvar-sentyabr aylarında bu daşımaların həcmi 2025-ci ilin eyni dövrü ilə müqayisədə təxminən altı dəfə artıb və 8 min tondan çox olub.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturundan Orta Dəhliz və "Şimal-Cənub" nəqliyyat dəhlizi vasitəsilə Vyetnamdan Avropaya və əks istiqamətdə yüklərin daşınması üçün səmərəli şəkildə istifadə etmək olar. Bu, ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərində rolunu gücləndirməklə yanaşı, əlavə iqtisadi dəyər və əməkdaşlıq üçün yeni imkanlar yaradılmasına və ikitərəfli əlaqələrin genişlənməsinə sanballı töhfə verəcək.

Ölkələrimiz ticarət dövriyyəsini əhəmiyyətli dərəcədə artırmaq və enerji, sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika sektorlarında - bir sözlə, demək olar ki, bütün aparıcı sahələrdə genişmiqyaslı birgə təşəbbüsləri uğurla həyata keçirmək üçün kifayət qədər resurslara malikdir. Əminəm ki, planauyğun birgə iş ən qısa müddətdə əhəmiyyətli praktik nəticələr əldə etməyə imkan verəcək.

- Humanitar, təhsil və mədəni əlaqələr ölkələrimizin bir-birinə yaxınlaşmasında hansı rol oynayır və bu prosesə hansı təşəbbüslər imkan yaradır?

- Humanitar əməkdaşlıq xalqlarımızı və dövlətlərimizi birləşdirən möhkəm körpü rolunu oynayır. Onilliklər ərzində bu əlaqələr təhsil təşəbbüsləri, xeyriyyə layihələri və müntəzəm mədəni mübadilə vasitəsilə davamlı olaraq möhkəmləndirilib.

Heydər Əliyev Fondu bu prosesdə xüsusi rola malikdir və Vyetnamla humanitar münasibətlərin dərinləşməsinə fəal surətdə kömək edir. Fondun fəaliyyət istiqamətləri Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla infrastruktur təşəbbüslərindən tutmuş müxtəlif təhsil proqramlarının dəstəklənməsinə qədər geniş spektri əhatə edir.

Fondun vitse-prezidenti Leyla Əliyevanın 2025-ci ildə Vyetnama səfəri bu əlaqələrin möhkəmləndirilməsində mühüm addım olub. Səfər zamanı ölkə rəhbərləri, yaradıcı ziyalıların nümayəndələri və Azərbaycan universitetlərinin vyetnamlı məzunları ilə görüşlər keçirilib. Hanoy Ticarət və Turizm Kollecinə də maliyyə dəstəyi göstərilib.

Xeyriyyəçiliklə yanaşı, elm və təhsil əməkdaşlığı da dinamik şəkildə inkişaf edir. Hər iki ölkənin aparıcı universitetləri bir sıra tərəfdaşlıq müqavilələri və memorandumlar imzalayıb. Vyetnam nümayəndələri Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün mənim sərəncamıma uyğun olaraq yaradılmış təhsil qrant proqramlarında iştirak etmək imkanına malikdirlər.

Sevindirici haldır ki, bu akademik əlaqələr zəngin tarixi ənənələrə əsaslanır: hətta sovet dövründə belə, təxminən 5 min Vyetnam vətəndaşı Azərbaycanda təhsil alıb və sonradan əldə etdikləri bilik və təcrübəni vətənlərinin rifahı naminə uğurla tətbiq edib. İki ölkə arasında uzunmüddətli dostluğun rəmzi 2025-ci ildə Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın iştirakı ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Ho Şi Minin Memorial otağının açılışı olub. Həmin açılış bu görkəmli dövlət xadiminin anadan olmasının 135-ci ildönümünə təsadüf edib.

Qarşılıqlı mədəni fəaliyyət təhsil əlaqələrini ahəngdar şəkildə tamamlayır. Azərbaycanda ənənəvi olaraq Vyetnam Günləri keçirilir. 2026-cı ildə bu təşəbbüs keyfiyyətcə yeni səviyyəyə çatdı: dördüncü festival ilk dəfə olaraq iki şəhəri - Bakı və Qəbələni əhatə etdi. Digər əhəmiyyətli mədəni hadisə isə məşhur vyetnamlı şair Mai Van Phanın "Gün doğarkən" şeirlər toplusunun Azərbaycanda nəşr edilməsi oldu.

Ümumilikdə, xalqlarımız arasında mədəni dialoq on illərdir davam edir. Hələ 1955-ci ildə bəstəkar Qara Qarayev ilk Sovet-Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı yaradıb. Bu yaradıcı əlaqələr sonradan rejissor Əjdər İbrahimov tərəfindən daha da möhkəmləndirilib. O, 1959-cu ildən 1962-ci ilə qədər Vyetnamda yaşayıb və çalışıb, milli kino məktəbinin ön sıralarında olub, yerli rejissorların və aktyorların yetişdirilməsinə kömək göstərib və ölkənizə bir neçə kitab həsr edib. Onlardan biri - "Vyetnamda gördüklərim" Vyetnam dilinə tərcümə edilib, bu kitabın təqdimatı isə bu il Hanoyda keçirilib.

Möhkəm dostluq bağları təkcə birgə layihələrdə deyil, həm də çətin anlarda köməyə gəlməyə hazır olmaqda özünü göstərir. 2024-cü ildə Vyetnamda baş verən "Yaqi" fırtınasının dağıdıcı nəticələrini aradan qaldırmaq, həmçinin 2025-ci ildə genişmiqyaslı daşqınların vurduğu ziyanın öhdəsindən gəlmək üçün Azərbaycan maliyyə yardımı göstərib.

- Vyetnama qarşıdakı səfərinizdən gözləntiləriniz nələrdir?

- Dost Vyetnama səfərimi səbirsizliklə gözləyirəm. Əminəm ki, bu, Azərbaycan və Vyetnam arasında qarşılıqlı faydalı tərəfdaşlığın dərinləşdirilməsində daha bir mühüm addım olacaq.

Bu gün Vyetnam Cənub-Şərqi Asiyada dinamik inkişaf edən ölkədir, Azərbaycan isə Cənubi Qafqazda əsas logistika və energetika habıdır. Qüvvələrimizi birləşdirərək yeni bazarlara çıxa, birgə layihələr həyata keçirə, biznes və investisiya üçün əlavə imkanlar yarada bilərik. Sözsüz ki, əməkdaşlığımız ölkələrimizə və xalqlarımıza nəzərəçarpan fayda gətirə biləcək böyük quruculuq potensialına malikdir.

Strateji Tərəfdaşlıq haqqında Xartiya - ABŞ-Azərbaycan münasibətlərinin yeni mərhələsi

Əməkdaşlıq istiqamətləri üzrə konkret layihələrin perspektivləri nəzərdən keçirilir

Beynəlxalq siyasi mənzərənin sürətlə dəyişdiyi, qlobal güc mərkəzlərinin yenidən formalaşdığı bir mərhələdə ABŞ-Azərbaycan münasibətləri də yeni məzmun və strateji dərinlik qazanmaqdadır. Xüsusilə Donald Trampın ikinci dəfə ABŞ prezidenti kimi hakimiyyətə qayıdışının ardından Vaşinqtonun Cənubi Qafqaza baxışında praqmatik və qarşılıqlı maraqlara əsaslanan yanaşmanın yenidən ön plana çıxması müşahidə olundu. Bu yanaşma isə regional lider, etibarlı tərəfdaş və müstəqil siyasət yürüdən Azərbaycanla münasibətlərin güclənməsi üçün real zəmin yaradır.

Tramp administrasiyasının ideoloji ritorikadan fərqli olaraq milli maraqlara söykənən xarici siyasət kursu Bakı-Vaşinqton xəttində uzun müddət kölgədə qalan potensialın üzə çıxmasına imkan verdi. Enerji təhlükəsizliyi, regional sabitlik, nəqliyyat-logistika dəhlizləri və terrorla mübarizə kimi sahələrdə Azərbaycanın regional aktor kimi oynadığı mühüm rol ABŞ üçün getdikcə daha aydın görünür. Eyni zamanda postmünaqişə dövründə Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın sülh təşəbbüsləri və konstruktiv mövqeyi Vaşinqtonun regional maraqları ilə üst-üstə düşür. Bu kontekstdə, xüsusilə, yeni bir mərhələyə qədəm qoymuş Azərbaycan-ABŞ münasibətlərində artıq davamlı yaxınlaşmalar, siyasi dialoqun inişafı nəzərə çarpır. 2026-cı ilin fevralında imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya iki ölkə arasında məzmun etibarı ilə yüksək olan tərəfdaşlığa yeni rəng qatıb - bu sənədin imzalanması Bakı-Vaşinqton əlaqələrində mühüm ştrixlərini oratya çıxardı. Belə ki, sənədin imzalanması Azərbaycan ilə ABŞ arasında əlaqələrin yaxın tərəfdaşlıq səviyyəsinə qalxdığını göstərir



Nələr müzakirə olunub?

Yeri gəlmişkən, noyabrın 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ABŞ-ın sülh missiyaları üzrə xüsusi nümayəndəsinin baş müşaviri Arye Laytstoun ilə görüşüb. Görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, habelə regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində əməkdaşlıq istiqamətləri üzrə konkret layihələrin perspektivlərini nəzərdən keçiriblər. Bununla yanaşı, regional bağlantıların, Orta Dəhlizin və nəqliyyat-logistika imkanlarının inkişafı məsələləri müzakirə olunub. Bu çərçivədə, eyni zamanda TRIPP layihəsinin regional nəqliyyat və iqtisadi bağlantıların gücləndirilməsinə, habelə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantının təmin edilməsinə töhfəsi vurğulanıb. Görüşdə həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi, eləcə də digər qarşılıqlı maraq doğuran istiqamətlər ətrafında da fikir mübadiləsi aparılıb.

Bakı-Vaşinqton münasibətlərində yeni çağırışlar

Qeyd olunmalıdır ki, Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən dialoqun daha da gücləndirilməsi ilə yanaşı, sənəd həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqların beynəlxalq müstəvidə qəbulunun göstəricisi sayıla bilər. Qarabağ müharibəsində əldə olunan zəfərdən sonra regionda yaranmış geosiyasi vəziyyət Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur. Xartiyanın preambulasında əksini tapan müddəalar Vaşinqtonun bu reallığı nəzərə aldığını və Bakı ilə münasibətləri yeni status və yeni əməkdaşlıq müstəvilərində inkişaf etdirmək niyyətində olduğunu göstərir. Belə ki, regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqların əhəmiyyəti hər iki ölkə tərəfindən təsdiqlənib. Eləcə də diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlər, strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyəti vurğulanıb.

Orta Dəhlizin inkişafına xüsusi diqqət

Xartiyanın əsas mahiyyətini təşkil edən amillərdən biri məhz regional bağlantılar, o cümlədən enerji, ticarət və tranzit məsələləridir. Xartiya Trans-Xəzər Nəqliyyat Dəhlizini (Orta Dəhliz) əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafını, enerji və data bağlantısını, ticarət və tranzitin asanlaşdırılmasını, gömrük nəzarəti və sərhəd keçidini, beynəlxalq multimodal logistikanı və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətini ortaya qoyur. Təbii ki, işarə olunan bu nüanslar birmənalı şəkildə Zəngəzur dəhlizi (TRIPP) ideyasının gerçəkləşdirilməsini də təmin edir. Təsadüfi deyil ki, Xartiyada ötən il Vaşinqtonda baş tutmuş Sülh Zirvə Görüşünün Bəyannaməsinə uyğun olaraq Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyəti əksini tapır. Bu əlaqələr isə özlüyündə ikitərəfli iqtisadi əlaqələri təşviq etmək məqsədilə biznes mühitinin, ticarət və sərmayə axınlarının inkişaf etdirilməsi istiqamətində çalışmaq niyyətini təmin edir. Təsadüfi deyil ki, sənəddə Orta Dəhlizin inkişafına xüsusi diqqət ayıraraq enerji, nəqliyyat və rəqəmsal infrastruktur sektorlarında, o cümlədən TRIPP və digər layihələrin inkişaf etdirilməsi vasitəsilə iqtisadi artımı və regional bağlantıları təşviq etmək üçün əməkdaşlığı genişləndirmək, regional bağlantıların əhəmiyyətini qəbul edərək, enerji və nəqliyyat sektorlarına, eləcə də rəqəmsal infrastrukturun inkişafına dövlət və özəl sektor sərmayələrini səfərbər etmək imkanlarını araşdırmaq, enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi Azərbaycanın strateji əhəmiyyətini qəbul edərək, ikitərəfli formatda və üçüncü ölkələrlə tərəfdaşlıq vasitəsilə interkonnektor layihələri kimi birgə layihələrin icrası və təchizat marşrutlarının şaxələndirilməsi istiqamətində neft, qaz və elektrik enerjisi sektorları da daxil olmaqla, enerji əməkdaşlığını genişləndirmək, mülki nüvə əməkdaşlığını dərinləşdirmək, kritik mineralların Orta Dəhliz vasitəsilə qlobal bazarlara tranzitini asanlaşdırmaqla bağlı əməkdaşlıq etmək niyyətləri öz əksini tapır. Bütün bunlar isə multimodal əməkdaşlıq sistemini ortaya qoyur.

Formalaşan yeni tərəfdaşlıq modeli

Sənəd həm də yeni innovasiyaların mübadiləsi məsələsində olduqca vacib məqamları özündə əks etdirir. Müasir çağırışlara, yeni standartlara əsaslanan əlaqələr iqtisadi sərmayələr üzrə əməkdaşlığın genişlənməsi, xüsusilə Süni İntellekt (AI) və rəqəmsal infrastruktur sahələrini əhatə etməsi, strateji və uzunmüddətli tərəfdaşlığın yeni mərhələyə keçidini ifadə edir. Bu addım innovasiya ekosisteminin gücləndirilməsi, texnologiya transferi, startap mühitinin inkişafı, yüksək ixtisaslı kadr hazırlığı və rəqəmsal transformasiyanın sürətləndirilməsi deməkdir - paralel olaraq məlumat təhlükəsizliyi, bulud texnologiyaları, data mərkəzlərinin qurulması və ağıllı həllərin tətbiqi kimi istiqamətlərdə birgə layihələrin həyata keçirilməsi sənədə əsasən atılacaq addımlar siyahısındadır. Bu əməkdaşlıq Azərbaycanın regional rəqəmsal hab kimi mövqeyini möhkəmləndirəcək, qeyri-neft sektorunun inkişafına təkan verəcək və qlobal texnologiya bazarına inteqrasiyanı sürətləndirəcək. Xartiyada bildirilir ki, tərəflər iqtisadi və ya ticarət dialoqu platformalarının təşkili imkanlarının araşdırılması da daxil olmaqla, ikitərəfli ticarət və sərmayələri artırmaq üçün strateji fürsətləri müəyyənləşdirmək niyyətindədirlər.

Bütün bunların fonunda Xartiya Azərbaycan-ABŞ münasibətlərini yeni mərhələyə daşıyan strateji yol xəritəsi kimi qiymətləndirilir. Bu sənəd qarşılıqlı etimadın möhkəmləndirilməsinə, ortaq maraqların uzlaşdırılmasına və gələcək əməkdaşlığın institusional əsasda inkişafına zəmin yaradır. Beləliklə, formalaşan yeni tərəfdaşlıq modeli bugünkü reallıqlarla yanaşı, qarşıdakı onilliklərin siyasi və iqtisadi gündəliyini müəyyən edən əsas çərçivəyə çevrilir.

P.İSMAYILOV

Azərbaycanın hərbi-diplomatik Qələbəsinin təntənəsi

44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında igid əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində qazanılan zəfərlər Azərbaycan xalqının nə qədər qürurlu, mərd və vətənpərvər olduğunu bütün dünyaya nümayiş etdirdi. Biz dövlət və xalq olaraq tarixi ədaləti və beynəlxalq hüququ təmin edən zəfərlərimizi daim yaşadacağıq. Təsadüfi deyildir ki, həmin tarixi hadisələrdən sonra müstəqil Azərbaycanın həyatına yeni əlamətdar günlər daxil olub. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad olunmuş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bu sırada yer alır.

Bu gün ölkəmizin hər yerində Ağdam Şəhəri Günü kimi qeyd olunur. Azərbaycanın qədim yaşayış məntəqəsi olan Ağdam məhz 20 noyabr 2020-ci il tarixində işğaldan azad olunub - üçtərəfli bəyanatın şərtlərinə uyğun olaraq döyüşsüz Azərbaycana təhvil verilib. Bu, Azərbaycanın Vətən müharibəsində qazandığı hərbi-diplomatik qələbəsinin təntənəsi idi.



İşğala qədərki dövr - Ağdamın ağ günləri

Ağdam Azərbaycanın qədim yaşayış məskənlərindən biridir. "Ağdam" sözü qədim türk dilində "kiçik qala" deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu şəhərin adının mənası dəyişib. XVIII əsrin birinci yarısında Qarabağlı Pənahəli xan bu ərazidə özü üçün ağ daşdan imarət tikdirir. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ mayak rolunu oynayıb. Bu mənada "Ağdam" həm də "ağ ev", "ağ şəhər" anlamına gəlir. 1930-cu ildə Ağdam rayonu yaradılıb. Rayonun sahəsi 1150 kvadratkilometrə bərabər idi.

İşğaldan əvvəlki dövrdə Ağdam ağ günlərini yaşayıb. Şəhər bütün bölgənin ticarət mərkəzi sayılırdı. Ətraf yaşayış məntəqələrinin sakinləri həftəlik və yaxud qışlıq azuqələrini toplamaq üçün bura üz tutardılar. Bu da onunla bağlı idi ki, Ağdam bazarında hər nə desən tapmaq mümkün idi. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. O vaxta qədər Ağdamın 1 şəhər, 124 kəndi var idi. Ağdam ağır, yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik bir rayon idi. Rayonda dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları, metiz- furnitur, traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları, tikinti materialları və ət kombinatları, iki dəmir yolu vağzalı və aeroport, Ü.Hacıbəyli adına musiqi texnikumu, Ə.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı və s. sosial və mədəniyyət obyektləri fəaliyyət göstərirdi. Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektarı isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi.

Ağdamda 145 tarix-mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. Onlardan 1-i dünya əhəmiyyətli memarlıq, 3-ü dünya əhəmiyyətli arxeoloji, 3-ü ölkə əhəmiyyətli memarlıq, 96-sı ölkə əhəmiyyətli arxeoloji, 26-sı yerli əhəmiyyətli memarlıq, 4-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə abidəsi, 4-ü yerli əhəmiyyətli arxeoloji abidələrdir. Dünyada ikinci, keçmiş İttifaq məkanında isə birinci və yeganə çörək muzeyi olan Ağdam Çörək Muzeyi 1983-cü il noyabr ayında fəaliyyətə başlayıb. Ağdam Çörək Muzeyində toplanan eksponatlar arasında nadir dənli bitki növləri, taxılçılığın inkişafına dair çoxsaylı qiymətli kitablar, əlyazmalar və başqa materiallar, qədim əkinçilik alətləri sayılan xış, adi və dişli oraq, taxıl döyən vərdənə, əl dəyirmanı və başqa alətlər də olub. Muzey eksponatlarının ən qədimi-eramızdan əvvəl VII minilliyə aid olan daşlaşmış buğda dənələri idi. 1992-ci il avqust ayının 12-də ermənilərin atdığı mərmi nəticəsində Ağdam Çörək Muzeyinin fəaliyyətinə son qoyuldu və muzeydə olan 1500-dək eksponat yanaraq məhv oldu.

Ağdam deyəndə həm də buradakı məşhur çay evi yada düşürdü. Burada akademik Xudu Məmmədovun ideyası əsasında inşa olunan və 1986-cı ildən fəaliyyət göstərən Ağdam çay evinin şöhrəti respublikanın dörd bir tərəfinə yayılmışdı.

İşğaldan əvvəl rayonda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. Ağdam Azərbaycan elminə və mədəniyyətinə Süleyman Sani Axundov, Famil Mehdi, Şahmar Əkbərzadə, Əhməd Ağdamski, Sara Qədimova, Qurban Primov, akademik Zakir Məmmədov, fəlsəfə elmləri doktoru Ziyəddin Göyüşov, tarix elmləri doktoru Rəşid Göyüşov, minerologiya elmləri doktoru Xudu Məmmədov və b. onlarla görkəmli şəxsiyyət bəxş edib.



Ağdamlılar şəhəri və ətraf kəndləri qorumaq üçün bir neçə il gecə-gündüz müqavimət göstəriblər. Lakin qüvvələr nisbəti qeyri-bərabər olduğuna görə, 23 iyul 1993-cü il tarixində Ağdam süqut edib. İşğal nəticəsində rayon ərazisinin təxminən 70 faizi ermənilərin nəzarətinə keçib. Bundan sonra Ağdamın qara günləri başlayıb. Ermənilər tarix boyunca özləri barəsində əsası olmayan miflər uydurublar. Həmin miflərdən biri də guya onların mədəni xalq olmaları ilə bağlıdır. Lakin ikinci Qarabağ müharibəsində işğaldan azad olunan ərazilərin vəziyyəti ermənilərin necə "mədəni xalq" olduqlarını göstərdi. Otuz illik işğal dövründə 11 min kvadratkilometrdən artıq ərazidə bütün şəhər və kəndlər, tarixi abidələr yerlə-yeksan edilib. Sanki bu yerlərdən mədəniyyət görməyən vəhşi qəbilə sürüləri gəlib keçiblər və yolları üstündə hər şeyi barbarcasına dağıdıblar.

Erməni vandalizminin kədərli mirası - Ağdam Qafqazın Xirosimasına çevrilib

Erməni vandalizminin bütün cəhətlərini Ağdamın timsalında da görmək mümkündür. Zamanında aran və dağlıq Qarabağın incisi sayılan Ağdam müharibədən sonra xarabalıqları xatırladırdı. Şəhərdən əsər əlamət yox idi, burada bir bina da salamat qalmamışdı. Göz işlədikcə uzanıb gedən ərazilərdə yalnız Cümə məscidinin qalıqlarını görmək mümkün idi. Düşmən məscidin qalıqlarını artilleriya atəşlərinin tənzimlənməsi üçün saxlamışdı.

Hesablamalara görə, işğal rayona 13 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan vurub. Prezident İlham Əliyev erməni vəhşiliyi ilə bağlı danışarkən deyib: "Keçmiş Ağdam şəhərində, ondan qalan ərazidə səfərdə olmuş xarici jurnalistlər onu dünya üçün örnək olacaqdır", - deyə dövlətimizin başçısı vurğulayıb.

Əvvəllər Ağdam şəhərinin əhalisi 36 min nəfər olub. Hazırda bu rəqəm 50 mindən yuxarıdır. Dövlət başçısının tapşırığına uyğun olaraq, şəhər 100 min nəfər əhali üçün planlaşdırılıb. Şəhərin 1700 hektar ərazidə salınması nəzərdə tutulub. Beləliklə, Ağdam iki dəfə böyüyəcək - əvvəllər şəhərin ərazisi 700-800 hektar təşkil edirdi. Ağdamda 1750 fərdi ev, 23 min mənzil inşa olunacaq. Əhalinin 30 faizi fərdi evlərdə yaşayacaq. Mərkəzi hissə şəhərin ən sıx yerini təşkil edəcək. Şəhərin ətrafı intensiv bağlarla əhatə olunacaq.

Ümumiyyətlə, postmüharibə dövründə Ağdamda icrasına başlanan layihələrin sayı kifayət qədər çoxdur. Artıq işğaldan azad olunmuş bir sıra ərazilər kimi, Ağdam rayonuna da ilk köç karvanları yola salınıb. Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynovun məlumatına əsasən, 2026-cı ilin sonunadək Ağdam şəhərinə 20 min keçmiş məcburi köçkünün köçürülməsi planlaşdırılır.

Mübariz ABDULLAYEV

Ağdam yenidən qurulur

İkinci Qarabağ müharibəsindən sonra ermənilər elə güman edirdilər ki, Azərbaycanın işğaldan azad etdiyi əraziləri bərpa etməyə gücü çatmayacaq və yaxud buna uzun illər tələb olunacaq. Ermənilərn bu gözləntiləri də suya düşüb əridi. Müharibə başa çatandan sonra hər zaman qərarlarını düzgün zamanlama ilə verən Prezident İlham Əliyev dövlətimiz və xalqımız üçün yeni ümummilli ideya müəyyənləşdirdi və milli gücü həmin ideyanın reallaşdırılması məqsədi ilə səfərbər etdi. Yeni strateji mərhələnin yeni ümummilli ideyası azad ərazilərin dirçəldilməsi və məskunlaşdırılması idi.

Beləliklə, işğaldan azad edilmiş ərazilərin bərpasına müharibə başa çatandan dərhal sonra, vaxt itirilmədən başlanıldı ki, bu da Azərbaycan dövlətinin gücünün və məsuliyyətinin təzahürü idi. İndi işğaldan azad edilmiş digər şəhər və kəndlərimiz kimi, Ağdamın da ağ günləri geri qayıdır. Azadlığına qovuşmuş bu şəhər böyük quruculuq, təmir-bərpa işlərinin meydanına çevrilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva postmüharibə dövründə bir neçə dəfə Ağdama səfər edərək burada reallaşdırılan layihələrlə tanış olublar və özlərinin dəyərli tövsiyələrini veriblər. 2021-ci il mayın 28-də Azərbaycanda dövlət bayramı kimi qeyd olunan Müstəqillik Günündə isə Ağdam tarixi anlara şahidlik edib. Belə ki, həmin tarixi gündə Prezident İlham Əliyevə Ağdam şəhərinin Baş Planı təqdim olunub. Qeyd edək ki, Baş Plan üzərində mütəxəssislərin iştirakı ilə bir müddət iş aparılıb. Sənəd hazırlanarkən şəhərin tarixi siması və müasir çağırışlar nəzərə alınıb. Əlbəttə, Ağdam şəhərinin Baş Planının dövlət başçısına təqdim olunması üçün başqa bir vaxt da seçilə bilərdi. Ancaq belə bir əlamətdar tədbirin dövlət bayramımız olan Müstəqillik günündə keçirilməsi böyük rəmzi məna daşıyır. Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündəki çıxışında əminliyini ifadə edərək bildirib ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən quruluacaq. "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya bizə qibtə edəcək", - deyə Prezident İlham Əliyev bildirib.

Azərbaycan və Gürcüstan iqtisadi əlaqələri dinamik inkişaf edir

İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə səfərdə olan Gürcüstanın baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili ilə görüşüb. Görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin dinamik inkişafına toxunulub, sənaye və istehsal sahəsində birgə layihələrin, enerji əməkdaşlığın, o cümlədən yaşıl enerji təşəbbüslərinin, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz çərçivəsində nəqliyyat-logistika imkanlarının əhəmiyyəti vurğulanıb. Müzakirədə ortaq iqtisadi maraqların reallaşdırılması və regional təşəbbüslərin irəlilədilməsi istiqamətində birgə fəaliyyətin önəmi qeyd olunub.

Bildirilib ki, Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin inkişafında dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri, XİN-lərarası siyasi məsləhətləşmələr, iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiya və parlamentlərarası dostluq qrupu mühüm rol oynamaqdadır.

Ticarət dövriyyəsi 1,2 milyard dolları ötüb

Azərbaycan və Gürcüstan arasında iqtisadi münasibətlər iki ölkənin strateji tərəfdaşlığının əsas istiqamətlərindən biri kimi daim diqqətdə saxlanılır. Birgə icra olunan layihələr həm bu ölkənin regional mövqeyinin artmasına, həm də iqtisadi təhlükəsizliyinin möhkəmlənməsinə və inkişafına töhfə verməkdədir. Enerji və nəqliyyat-logistika sahələrində birgə reallaşdırdığı nəhəng layihələr nəinki ikitərəfli əməkdaşlığın inkişafına xidmət edir, hətta regionun hüdudlarını aşaraq qlobal enerji təhlükəsizliyi və qitələrarası nəqliyyat bağlantılarında müstəsna rol oynayır.

Mariam Kvrivişvili bildirib ki, regionda baş verən geosiyasi dəyişikliklər fonunda Cənubi Qafqazda sülhün və sabitliyin möhkəmləndirilməsi, dinc yaşayış və dialoqun davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Regionda sülh təşəbbüslərinin davam etdirilməsi iqtisadi inkişaf üçün yeni imkanlar yaradır. Bu, bölgədə strateji nəqliyyat və kommunikasiya bağlantılarının, Şərq və Qərb arasında etibarlı körpüyə çevrilən Orta Dəhlizin Azərbaycan və Gürcüstan üçün əhəmiyyətini daha da artırır, iqtisadi münasibətləri möhkəmləndirir.

Tərəflər arasında iqtisadi-ticari-investisiya əlaqələrinin möhkəmlənməsində Hökumətlərarası Komissiyanın fəaliyyəti də müstəsna rol oynayır. Yüksəksəviyyəli görüşlər və komissiyanın iclasında xüsusi önəm verilən məsələlər, daim inkişaf etdirilən dialoqlar tərəflər arasında əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfələr verir. Əldə olunmuş razılaşmalar münasibətlərin strateji mahiyyətini bir daha təsdiqləyir və bütün sahələrdə müsbət dinamika müşahidə olunur. Bu, ticarət-iqtisadi sahələrdə də özünü bariz şəkildə əks etdirir. Hazırda Gürcüstan Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir, cari ilin ötən 10 ayı ərzində (yanvar-oktyabr) qarşılıqlı ticarət dövriyyəsi illik müqayisədə 14,6 faiz artaraq 1 milyard 254 milyon dollar təşkil edib. İki ölkə arasında illik ticarət dövriyyəsinin yaxın perspektivdə 2 milyard dolları aşması gözlənilir.



Əməkdaşlığın digər mühüm istiqaməti kənd təsərrüfatıdır. Qida Təhlükəsizliyi Agentliyi ilə Gürcüstanın Milli Qida Agentliyi arasında bitki karantini, bitki mühafizəsi və baytarlıq sahələrində imzalanan Anlaşma memorandumları aqrar ticarətin inkişafına əlavə imkanlar açır. Bu sənədlər fitosanitar və baytarlıq nəzarəti sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə, məhsulların təhlükəsizliyinin təmin olunmasına, ixrac prosedurlarının asanlaşdırılmasına və sahibkarların üzləşdiyi inzibati maneələrin azaldılmasına xidmət edə bilər. Nəticədə, hər iki ölkənin kənd təsərrüfatı istehsalçıları üçün qarşılıqlı bazarlara çıxış imkanları genişlənə bilər.

Gürcüstanın ən güclü investisiya partnyoru

İnvestisiya sahəsində əməkdaşlıqda da yüksək dinamika nümayiş etdirilir. Bu sahədə davamlı olaraq kapital dövriyyəsi böyüyür və Azərbaycan Gürcüstana ən çox sərmayə yatıran ölkə kimi mövqeyini qoruyub saxlayır. Gürcüstanda müsbət sərmayə iqliminin mövcud olması Azərbaycanın iri şirkətlərinin, özəl investorlarının sərmayə təşəbbüskarlığını artırır. Ölkəmiz indiyə qədər Gürcüstana 4 milyard dollara yaxın sərmayə yatırılıb ki, bu, dost ölkənin iqtisadi inkişafına öz mühüm töhfələrini verib. Hər iki ölkə yeni investisiya layihələri haqqında fikir mübadiləsi apararaq investisiya proqramını şaxələndirmək və üçüncü ölkələrə də birgə sərmayə qoyuluşunu icra etməyi nəzərdə tutur.

Yeri gəlmişkən, SOCAR bu ölkədə ən iri investor kimi fəal mövqeyini gücləndirməkdədir. Şirkət korporativ investisiya proqramı ilə Gürcüstandakı "Kulevi" terminalına sahib olub, 2008-ci ildə təsis olunmuş "SOCAR Energy Georgia" şirkəti Gürcüstanda ilk yanacaqdoldurma stansiyasını açaraq bu şəbəkəni genişləndirib. Hazırda Gürcüstan ərazisində "SOCAR" brendi altında 50-dən çox stansiya fəaliyyət göstərir. Gürcüstanda pərakəndə neft məhsulları satışı bazarının 75 faizi Azərbaycanın nəzarətindədir. Son illərdə bu ölkənin nəqliyyat, infrastruktur, enerji sektorlarının əsaslı şəkildə yenidən qurulmasında da ölkəmiz əsas maliyyə təchizatçısı kimi çıxış edir.

E.CƏFƏRLİ

YAP Mərkəzi Aparatında görüş keçirilib







Noyabrın 19-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP İdarə Heyətinin üzvü Samir Cəfərovun 50 illik yubileyi münasibətilə görüş keçirilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Samir Cəfərov Heydər Əliyev ideyalarına sadiq, möhkəm əqidəli və vətənpərvər şəxsiyyət kimi uzun müddət mədəniyyət sahəsində uğurlu fəaliyyət göstərərək öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib.

Tahir Budaqov Azərbaycan opera sənətinin inkişafına mühüm töhfələr verən, zəngin repertuara və geniş yaradıcılıq təcrübəsinə malik Samir Cəfərovun çoxillik və məqsədyönlü fəaliyyətinin ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb: "Sizin Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 2012-ci ildə isə Azərbaycan Respublikasının Xalq artisti fəxri adlarına, eləcə də Prezident mükafatına layiq görülməyiniz əməyinizə verilən yüksək dəyərin bariz nümunəsidir".

Yeni Azərbaycan Partiyası Sədrinin müavini vurğulayıb ki, Samir Cəfərov hazırda YAP İdarə Heyətinin üzvü kimi məqsədyönlü fəaliyyətini uğurla davam etdirərək partiyanın həyatında yaxından iştirak edir: "Sizə möhkəm cansağlığı, uzun ömür və mənəvi dəyərlərin, dövlət maraqlarının qorunması, tarixi irsimizin mühüm tərkib hissəsi olan milli mədəniyyətimizin təbliği, gənc nəslin vətənpərvərlik ruhunda sağlam yetişməsi istiqamətində şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram".

Göstərilən diqqətə görə minnətdarlığını bildirən Samir Cəfərov Ümummilli Liderin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən, Azərbaycanın tərəqqisində müstəsna rol oynayan Yeni Azərbaycan Partiyasının həyatında yaxından iştirak etməkdən qürur duyduğunu, bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Tamamilə qəbuledilməzdir!

Fransa Azərbaycana qarşı qərəzli mövqeyinə son qoymalıdır

Fransa Azərbaycana qarşı qərəzli mövqeyindən əl çəkmir. Belə ki, Fransanın Avropa və Xarici İşlər Nazirliyində xarici ticarət və iqtisadi cəlbedicilik məsələləri üzrə səlahiyyətli nazir Nikola Forissye parlamentin iclasında deputatların suallarını cavablandırarkən Azərbaycana qarşı əsassız fikirlər səsləndirib. Xatırladaq ki, bugünlərdə Marseli təmsil edən senator Karlotti Fransa hökumətinin Qarabağdan "məcburi köçürülmüş sakinlərə göstərdiyi dəstək, eləcə də Bakıda saxlanılan erməni məhkumların taleyi ilə bağlı" sual verib.



Forissyenin əsassız iddiaları...

Senatorun sualına cavab olaraq, Forissye 14 yanvar 2026-cı ildə dörd erməni məhkumun vətəninə qaytarılmasını "alqışlayıb" və digər həbsdə olan erməni cinayətkarların azad edilməsinə "çağırıb". O iddia edib ki, Qarabağda yaşamış ermənilər qayıtmaq istəyərsə, onlar bunu sərbəst və təhlükəsiz şəraitdə həyata keçirə bilməlidir.

Azərbaycanın Xarici İşlər Nazirliyi isə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin və xarici ticarət və iqtisadi cəlbedicilik məsələləri üzrə səlahiyyətli nazirinin ölkəmizə qarşı iddialarını tamamilə qəbuledilməz hesab edir. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, Fransanın nümayiş etdirdiyi selektiv yanaşma, birtərəfli qiymətləndirmələri və siyasi motivli narrativlərə əsaslanmaqda davam etməsi regionda sülh gündəliyinin irəliləməsinə xidmət etmir. Onun sözlərinə görə, 2023-cü ilin sentyabr ayında Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri Ermənistan silahlı qüvvələrinin və onlara bağlı strukturların Azərbaycanın suveren ərazilərində qanunsuz hərbi mövcudluğuna və fəaliyyətinə son qoyulmasına, ölkənin konstitusiya quruluşunun bərpa edilməsinə, suverenliyinin və ərazi bütövlüyünün təmin olunmasına yönəlmiş və BMT Nizamnaməsinin müvafiq müddəaları da daxil olmaqla, beynəlxalq hüquqa uyğun həyata keçirilib. Bu tədbirləri beynəlxalq hüququn pozulması kimi təqdim etmək cəhdləri, eyni zamanda, onilliklər ərzində davam etmiş işğalı, etnik təmizləməni və yüz minlərlə azərbaycanlının hüquqlarının sistematik şəkildə pozulmasını nəzərə almamaq qəbuledilməzdir.

XİN: Bu cəhdlər hüququn aliliyi prinsipi ilə uzlaşmır

Humanitar məsələlərə gəldikdə, A.Hacızadə deyib ki, Azərbaycan ölkədə məhkəmə araşdırmasına cəlb edilmiş və ya məhkum olunmuş şəxslərin "özbaşına həbs edilmiş" şəxslər kimi təqdim edilməsi cəhdlərini rədd edir: "Məsuliyyətə cəlb edilən şəxslər arasında müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və terrorçuluq da daxil olmaqla, ağır cinayətlərdə ittiham olunan və məhkum edilmiş şəxslər var. Onların işlərinə Azərbaycanın milli qanunvericiliyi və müvafiq beynəlxalq öhdəlikləri çərçivəsində baxılıb. Xarici tərəflərin ağır müharibə cinayətlərinə görə məhkum edilmiş şəxslərin azad edilməsini tələb etmək cəhdləri hüququn aliliyi prinsipi ilə uzlaşmır".

XİN rəsmisi mədəni və dini irsin dağıdılması və ya qəsdən dəyişdirilməsi ilə bağlı iddiaları da rədd edib. A.Hacızadənin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə mədəni irs abidələrinin qorunması və bərpası ölkəmizin davamlı prioritetlərimiz sırasındadır. Eyni zamanda, Ermənistanın onilliklər boyu davam etmiş işğalı zamanı Azərbaycan xalqının mədəni və dini irsinə, o cümlədən məscidlərə, qəbiristanlıqlara və digər tarixi abidələrə qarşı törədilmiş genişmiqyaslı dağıntı və mənimsəmə hallarının diqqətdən kənarda saxlanılmaması vacibdir. "Ermənistandan və Azərbaycanın keçmiş işğal olunmuş ərazilərində öz evlərindən zorla qovulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının, o cümlədən təhlükəsiz və ləyaqətli qayıdış hüququnun da eyni səviyyədə diqqətə alınmasının vacibliyini xatırladırıq. Humanitar məsələlərə selektiv yanaşma beynəlxalq hüquq və insan hüquqları ilə bağlı çağırışların etibarlılığını sarsıdır" - deyən A.Hacızadə əlavə edib ki, Fransa hökumətinin özünün insan hüquqları və idarəçilik sahəsindəki vəziyyəti ilə bağlı ciddi narahatlıqları aradan qaldırmaq əvəzinə, digər dövlətlərin daxili işlərinə qiymət verməsi də diqqət çəkir.



Paris daxili problemlərinin həllinə fikir verməlidir

XİN nümayəndəsi qeyd edib ki, Fransa hüquq-mühafizə orqanları tərəfindən nümayişçilərə, o cümlədən yetkinlik yaşına çatmayan şəxslərə qarşı həddindən artıq güc tətbiqi dəfələrlə ciddi narahatlıqlara səbəb olub: "Fransada tələbə etirazları zamanı ağır xəsarət alanların olması, habelə polis əməkdaşlarının qanunsuz hərəkətləri ilə bağlı çoxsaylı araşdırmaların başlanması bu narahatlıqları daha da artırır. Bundan əlavə, Fransa siyasi xadimləri, o cümlədən parlament üzvləri ilə bağlı davam edən məhkəmə prosesləri və korrupsiya araşdırmaları şəffaflıq, ictimai hesabatlılıq və dövlət institutlarının dürüstlüyü ilə bağlı əsaslı suallar doğurur. Fransa digər ölkələrə qarşı selektiv tənqid və siyasi motivli qiymətləndirmələrə yol vermək əvəzinə, ilk növbədə öz daxilindəki bu problemlərin həllinə diqqət yetirməlidir".

A.Hacızadə Fransa hökumətini qərəzli yanaşmadan əl çəkməyə və Azərbaycanın daxili işlərinə müdaxilədən çəkinməyə çağırıb.

Qeyd edək ki, son vaxtlar Parisin anti-Azərbaycan ritorikasının intensivləşməsi sistemli xarakter alır. Sentyabr ayında Fransanın Xarici İşlər Nazirliyi Azərbaycanın məhkəmə sistemi ilə bağlı ittihamlar irəli sürüb, oktyabrda isə bu ölkənin xarici işlər naziri Jan-Noel Barro Fransanın dənizaşırı ərazilərində baş verən hadisələr kontekstində Bakıya qarşı yenidən əsassız iddialar səsləndirib. Noyabr ayındakı bəyanatlar da həmin siyasi xəttin davamıdır. Bütün bunlar ikitərəfli münasibətlərdə müəyyən müsbət siqnalların müşahidə olunmasına, o cümlədən sentyabr ayında BMT Baş Assambleyası çərçivəsində iki ölkənin xarici işlər nazirlərinin görüşünə baxmayaraq baş verir.

Fransanın Cənubi Qafqaza təsir imkanları məhdudlaşıb

Əslində, Parisin bu mövqeyinin səbəblərini daha geniş geosiyasi kontekstdə axtarmaq lazımdır. Qarabağ münaqişəsinə son qoyulması, ATƏT-in Minsk qrupunun ləğvi, Bakı ilə İrəvan arasında birbaşa dialoqa keçid Fransanın regional proseslərə təsir imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırıb. Belə şəraitdə Parisin tərəflərdən birini dəstəkləməklə Cənubi Qafqazda öz siyasi mövcudluğunu qoruyub saxlamaq cəhdi regional sabitliyin obyektiv maraqları ilə ziddiyyət təşkil edə bilər. Bütün bunlarla yanaşı, daxili siyasi amillərin təsirini də istisna etmək olmaz. Sosial-iqtisadi çətinliklər, kütləvi etirazlar və ictimai etimad böhranı fonunda Fransa rəhbərliyi beynəlxalq siyasətdə öz əhəmiyyətini nümayiş etdirməkdə maraqlıdır. Lakin daxili problemləri xarici siyasi fəallıq hesabına kompensasiya etmək cəhdlərinin Fransanın beynəlxalq nüfuzunu gücləndirəcəyi inandırıcı görünmür.

Nəzərə alaq ki, bu gün Azərbaycan Avropa dövlətləri ilə əməkdaşlığını ardıcıl şəkildə genişləndirir, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında və yeni beynəlxalq nəqliyyat marşrutlarının formalaşdırılmasında öz rolunu möhkəmləndirir. Belə bir şəraitdə Parisin qarşıdurma siyasəti Azərbaycanın imkanlarını məhdudlaşdırmaqdan daha çox Fransanın özünün Cənubi Qafqazdakı perspektivlərini daraldır. Fransa rəhbərliyi anlamalıdır ki, Cənubi Qafqaz artıq xarici aktorların həll olunmamış münaqişələrdən təsir vasitəsi kimi istifadə edərək siyasi gündəliyi müəyyənləşdirə bildikləri məkan deyil. Bu gün regionda suverenliyə, ərazi bütövlüyünün qarşılıqlı tanınmasına və birbaşa dövlətlərarası dialoqa əsaslanan prinsipial olaraq yeni münasibətlər modeli formalaşır. Əgər Fransa həqiqətən Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasında maraqlıdırsa, ikili standartlar siyasətindən imtina etməlidir.

Nardar BAYRAMLI

"Qara qutu"su yoxa çıxan helikopter qəzası...

Qarakənd faciəsindən 35 il ötür

Tale elə gətirib ki, Azərbaycan müstəqilliyinin ilk illərindən qonşu Ermənistanın işğalçılıq siyasəti ilə üz-üzə qalıb. Təxminən üç onilliyi əhatə edən işğal dövründə ermənilər ən qəddar formada sayı-hesabı bilinməyən müharibə cinayətləri törədiblər.

Belə cinayətlərdən biri də 35 il bundan əvvəl tarixin bu günündə - 1991-ci il noyabrın 20-də baş verib. Həmin gün Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında faciəvi hadisə yaşanıb - içərisində Azərbaycanın görkəmli ziyalılarının və dövlət xadimlərinin olduğu hərbi helikopter vurularaq partladılıb.

Faciənin təfərrüatları gizlədilirdi


Faciə nəticəsində vertolyotda olan 22 nəfərin hamısı həlak olub. Onların arasında Azərbaycanın daxili işlər naziri Məhəmməd Əsədov, baş prokuror İsmət Qayıbov, Dövlət katibi Tofiq İsmayılov, onun köməkçisi Rafiq Məmmədov, SSRİ Ali Sovetinin deputatları Vəli Məmmədov, Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Cəfərov, jurnalist Alı Mustafayev, operator Fəxrəddin Şahbazov, işıqçı Arif Hüseynzadə, bundan başqa Rusiya və Qazaxıstan hərbi müşahidəçiləri də olublar.

Aradan 35 il ötüb. Bununla belə, hələ Qarakənd faciəsinin bütün qaranlıq məqamlarını aydınlaşdırmaq mümkün olmayıb. Çoxlu sayda şübhə dolu məqamlar var. Əvvəla, onu qeyd edək ki, faciə baş verən vaxtı hərbi vertalyotun vurulması ilə bağlı ictimaiyyətə yanlış məlumat verilib. Belə ki, vertalyotun pis hava şəraiti ilə əlaqədar qəzaya uğradığı bildirilib. Sonradan bu məlumat təkzib edilib və vertalyotun vurulduğu etiraf edilib. Sual isə dəyişməz olaraq qalır: Faciə niyə gizlədilirdi? Bunun göstərişi haradan gəlmişdi?

"Ölüm siyahısı"nın hazırlanmasındakı müəmmalar

Yuxarıda Qarakənd səmasında partladılan vertalyotda həyatlarını itirən insanların adlarını sadaladıq. Buradan da faciə ilə əlaqədar daha bir müəmma yaranır: Niyə Azərbaycan cəmiyyətinin, necə deyərlər, qaymaqları eyni bir vertalyotla silahlı toqquşmalar baş verən münaqişə bölgəsinə göndərilmişdi?

Faciə ərəfəsində, daha dəqiq desək, 1991-ci il noyabrın 18-də Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vuraraq Təhlükəsizlik Şurasının növbəti iclasını Dağlıq Qarabağda keçirməyi xahiş edir. Səbəb kimi də həmin ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakının planlaşdırılması göstərilir. Bu telefon zəngindən sonra Bakıda iclasda iştirak edəcək şəxslərin siyahısı tərtib edilir. Rəsmi Moskva həmin vaxt Azərbaycanda böyük nüfuza malik şəxslərin, o cümlədən Dövlət katibi Tofiq İsmayılovun, baş prokuror İsmət Qayıbovun həmin siyahıda yer alması üçün xüsusilə israr edirdi. Siyahıya Viktor Polyoniçkonun başçılıq etməsi haqqında qərar qəbul olunsa da, faciədən bir gün əvvəl, gecə ikən "ölüm siyahısı" təcili qaydada yenilənir, Belə ki, Viktor Polyaniçkonun, güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Yeni siyahını Ayaz Mütəllibov təsdiqləyir.



Bundan sonra digər bir müəmmalı hərəkət izlənilir. Qaydalara görə, içərisində tanınmış dövlət xadimlərinin və ziyalıların olduğu helikopteri hərbi vertalyotlar mühafizə məqsədilə müşayiət etməliydilər. Bu da baş verməyib. Heç kim vertalyotun mühafizəsi barədə danışmayıb.

Ucaq qəzalarında "qara qutular" ümid yeri kimi görünür. Azərbaycan ictimaiyyəti gözləyirdi ki, "qara qutu" oxunduqdan sonra Qarakənd faciəsinin gizli qalan sirləri açılacaq. Ancaq gözləntilər əbəs idi. Diqqət yetirək: Faciə ilə bağlı 21 noyabr 1991-ci ildə Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açılır və istintaqın davam etdirilməsi üçün Respublika Prokurorluğuna verilir. Lakin sonradan cinayət işi üzrə istintaq dayandırılır. Səbəb kimi hadisənin baş verdiyi ərazinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunması göstərilir. Bundan başqa,

"Qara qutu" "əriyib" bəhanəsi ilə açılmadı...

Xankəndidəki rus qarnizonunun anası erməni olan hərbi prokuroru İ.Lazukitin faciə ilə əlaqədar cinayət işi açır, amma cinayətin təsdiqlənməsi üçün əsas sübut olan vertalyotun "qara qutu"sunu da ələ keçirərək ona toxunmağı qadağan edir, bizim mütəxəssislərimiz "qara qutu"ya yaxın buraxılmırlar. Bəhanə isə guya "qara qutu"nun partlayış nəticəsində əriyib sıradan çıxması göstərilib. Beləliklə, "qara qutu"nun hansı sirləri gizlətdiyini aşkarlamaq mümkün olmayıb.

Hadisə yerindən 500-600 metr aralıda tapılan cəsədlərin gizlətdiyi sirlər

Müəmmaların siyahısı bununla da tamamlanmır. Hadisədən sonra cinayətlə bağlı müxtəlif iddialar səsləndirilib. Qəzaya uğrayan helikopterə yaxınlaşan maşın karvanını görən çobanın ifadəsinin silinməsi, azərbaycanlıların yerli özünümüdafiə dəstəsinə rəhbərlik edən "Qatır Məmməd" ləqəbli Yaqub Rzayevin qəza barədə müxtəlif fikirlər səsləndirildikdən sonra həbsxanada müəmmalı şəkildə ölməsi, vacib istintaq detallarının itməsi faciənin hələ də qaranlıq qalan müəmmalarıdır.

Hadisə yerinə ilk çatan şəxslərin və şahidlərin sözlərinə görə, bəzi sərnişinlərin cəsədləri helikopterin qalıqlarından 500-600 metr aralıda tapılıb. Bu fakt həmin şəxslərin qəzadan sağ çıxıb uzaqlaşmağa çalışdıqlarını, lakin əraziyə gələn erməni silahlıları tərəfindən yerdə güllələnib yandırıldıqları ehtimalını gücləndirir

Qisas qiyamətə qalmadı

Ermənilərin havadarlarının dəstəyi ilə bu cinayətə əl atmalarında əsas məqsədləri azərbaycanlıların gözünü qorxutmaq və onların doğma yurd yerlərindən çıxıb getmələrinə nail olmaq idi. Bir neçə ildən sonra ermənilər öz niyyətlərinə çatdılar. Yenə də havadarlarının dəstəyi ilə Azərbaycanın ərazilərinin 20 faizini işğal altına almağa və bir milyondan artıq soydaşımızı tarixi yurd yerlərindən qovmağa nail oldular.

Ancaq bu "uğur" müvəqqəti idi. Qisas qiyamətə qalmadı. Müzəffər Ordumuz 44 günlük müharibəni və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatını böyük qələbələrlə tamamlayaraq düşmənin burnunu ovdu və tarixi ədaləti bərpa etdi. Bu gün Azərbaycanın bütün ərazilərində bayrağımız əzəmətlə dalğalanır, bizlərə sonsuz sevinc və qürur hissi yaşadır. Təsəlli yerimiz də elə bundadır. Şəhidlərimizin, o cümlədən də Qarakənd faciəsinin qurbanlarının qanı yerdə qalmayıb. İndi onların azad ruhları azad Vətənin göylərində dolaşır...

Mübariz FEYİZLİ

Növbəti uğur!

Bəyannamənin BMT-nin rəsmi sənədi kimi yayılması itkin düşmüş şəxslər probleminin beynəlxalq səviyyədə diqqət mərkəzində saxlanılması baxımından önəmlidir

Ermənistan torpaqlarımızın işğalı dövründə xalqımıza qarşı çoxsaylı cinayətlər törədib. Azərbaycana qarşı hərbi təcavüz zamanı dinc insanlar kütləvi qətlə yetirilib, girov götürülüb, eləcə də yaşayış məntəqələri tamamilə dağıdılıb. Eyni zamanda, müharibə dövründə itkin düşmüş minlərlə azərbaycanlının taleyi bugünədək məlum deyil.

4 min nəfərdən çox itkin...

Ermənistanın Azərbaycana qarşı otuz ildən artıq davam edən hərbi təcavüzü nəticəsində uşaqlar, qadınlar və ahıllar da daxil olmaqla, 4010 azərbaycanlı itkin düşmüş şəxs kimi qeydə alınıb. Vətən müharibəsində qazandığımız tarixi Zəfər və torpaqlarımızın işğaldan azad edilməsi isə itkin düşmüş vətəndaşlarımızın axtarışı üçün yeni imkanlar açıb. Hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası fəaliyyətini daha da genişləndirərək itkin düşmüş vətəndaşların yerinin müəyyənləşdirilməsi, kütləvi məzarlıqların aşkar edilməsi məqsədilə intensiv tədbirlər həyata keçirir.

Eyni zamanda, bu istiqamətdə həqiqətlər beynəlxalq tribunalardan dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Ötən ay Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin birinci katibi Şəhriyar Hacıyev BMT Baş Assambleyasının 81-ci sessiyasının Üçüncü Komitəsində keçirilən interaktiv dialoq zamanı bu mövzuya diqqət çəkmişdi. O bildirib ki, keçmiş münaqişə nəticəsində itkin düşmüş 4 mindən çox şəxsin taleyinin müəyyənləşdirilməsi Azərbaycan üçün münaqişədən sonrakı dövrdə əsas prioritetlərdən biri olaraq qalır. Keçmiş münaqişə ilə əlaqədar 4 mindən çox şəxs itkin düşmüş hesab olunur və onların arasında 288 qadın, 71 uşaq və 319 yaşlı şəxs var.



Bəyannamədə silahlı münaqişələr nəticəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması, ailələrin yaxınları barədə məlumat almaq hüququnun təmin edilməsi, fərdi və kütləvi dəfn yerlərinə dair məlumatların mübadiləsi, insan qalıqlarının təhlükəsiz və elmi əsaslarla aşkar edilməsi, identifikasiyası və qaytarılması, habelə beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı mühüm müddəalar yer alıb. Sənəddə dövlətlər, beynəlxalq və qeyri-hökumət təşkilatları arasında təcrübə mübadiləsinin, müasir məhkəmə-ekspertiza metodlarının və yeni texnologiyaların tətbiqinin genişləndirilməsi təşviq edilir. Xüsusilə BMT və digər beynəlxalq təşkilatlar silahlı münaqişələr nəticəsində itkin düşmüş şəxslər probleminin həllinə yönəlmiş xüsusi beynəlxalq mexanizmin yaradılmasına dəstək göstərməyə çağırılır.

Bəyannamədə Bakı Dialoqunun beynəlxalq təcrübə mübadiləsi, etimadın möhkəmləndirilməsi və ailələrin

Eyni zamanda, oktyabrın 7-dən 10-dək Bakıda bu mövzuya həsr olunmuş beynəlxalq konfrans keçirilib. Belə ki, "İtkin düşmüş şəxslər probleminin həllində etimadın gücləndirilməsi və effektiv mexanizmlərin inkişaf etdirilməsi" mövzusunda keçirilən IV beynəlxalq konfransda vacib məsələlər müzakirə olunub. Konfransda vurğulandığı kimi, itkin düşmüş şəxslərin axtarışlarının səmərəliliyi dəqiq məlumatların əldə

Beynəlxalq konfransda vacib müzakirələr aparılıb

olunmasından bilavasitə asılıdır. Ermənistan itkin düşmüş azərbaycanlıların taleyi, kütləvi və fərdi dəfn yerləri barədə bütün məlumatları təqdim etməli, müvafiq arxivlərin açılmasına və şahid ifadələrinin toplanmasına şərait yaratmalıdır. Bu, hüquqi öhdəlik və humanitar məsuliyyət olmaqla yanaşı, sülhə sadiqliyin əməli ifadəsi, qarşılıqlı etimadın möhkəmləndirilməsinə töhfə olardı. İnsan taleləri-nə aid məlumatlar siyasi şərtləndirmə predmeti olmamalıdır. Tədbirdə, həmçinin vurğulanıb ki, əsir və girovların beynəlxalq təşkilatlardan gizlədilməsi, işgəncə ilə öldürülməsi və cinayətlərin izlərinin ört-basdır edilməsi beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Bu əməllərə hüquqi qiymət verilməlidir.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə bu il oktyabrın 7-10-da Bakı Dialoqu çərçivəsində keçirilmiş "İtkin düşmüş şəxslər probleminin həllində etimadın gücləndirilməsi və effektiv mexanizmlərin inkişaf etdirilməsi" mövzusunda IV Beynəlxalq Konfransın yekununda qəbul edilmiş Bəyannamə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi qismində yayılıb. Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin BMT-nin Baş katibinə ünvanladığı 27 oktyabr 2026-cı il tarixli məktuba əlavə edilmiş Bəyannamə A/81/462-S/2026/849 nömrəsi ilə Baş Assambleyanın 81-ci sessiyasının gündəliyinin müvafiq bəndləri üzrə və Təhlükəsizlik Şurasının sənədi kimi dövriyyəyə buraxılıb.

Bəyannamədə nələr deyilir?

yaxınlarının taleyi barədə cavab almasına yönəlmiş praktiki əməkdaşlıq üçün getdikcə daha əhəmiyyətli platformaya çevrildiyi vurğulanır. Həmçinin konfransın təşkilinə və itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması istiqamətində milli və beynəlxalq səylərin konstruktiv müzakirəsinə imkan yaradılmasına görə Azərbaycan Respublikasının Dövlət Komissiyasına minnətdarlıq ifadə olunur.

Bəyannamənin BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılması Azərbaycanın itkin düşmüş şəxslər probleminin beynəlxalq səviyyədə diqqət mərkəzində saxlanılması və bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində təşəbbüslərinin davamı baxımından mühüm əhəmiyyət daşıyır.

Nardar BAYRAMLI

Zəngəzur dəhlizinin (TRIPP) texniki parametrlərinin Azərbaycanla razılaşdırılması zəruridir

Azərbaycanın regionda yaratdığı yeni reallıqlar artıq özünün məntiqi nəticələrini verməkdədir. Vətən müharibəsində qazanılan tarixi qələbə yalnız ərazi bütövlüyümüzün bərpası ilə məhdudlaşmadı, eyni zamanda Cənubi Qafqazda tamamilə yeni siyasi, təhlükəsizlik və iqtisadi konfiqurasiyanın formalaşmasına yol açdı. Uzun illər münaqişə və qarşıdurma məkanı kimi tanınan region bu gün mərhələli şəkildə əməkdaşlıq və inkişaf platformasına çevrilməkdədir. Bu dəyişikliklərin mərkəzində isə məhz Azərbaycanın düşünülmüş və uzaqgörən siyasəti dayanır.

Müharibədən sonra formalaşan yeni təhlükəsizlik arxitekturası region dövlətləri üçün dayanıqlı sülh imkanları ilə yanaşı, geniş iqtisadi perspektivlər də yaradıb. Azərbaycan öz qətiyyətli mövqeyi ilə sübut etdi ki, güclü dövlətçilik yalnız hərbi potensialla deyil, eyni zamanda iqtisadi və diplomatik imkanların düzgün uzlaşdırılması ilə mümkündür. Bu yanaşma Cənubi Qafqazın qlobal iqtisadi transformasiyalarda iştirakını qaçılmaz edir, regionu beynəlxalq ticarət və logistika zəncirlərinin mühüm həlqəsinə çevirir. Yeni reallıqlar fonunda Cənubi Qafqaz artıq qapalı geosiyasi məkan deyil, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji körpü kimi çıxış

Ermənistan etiraf edir...

edir. Azərbaycanın təşəbbüskarı olduğu nəqliyyat və enerji layihələri regionun iqtisadi xəritəsini yenidən formalaşdırır, ölkəmizin rolunu əsas aparıcı qüvvə kimi möhkəmləndirir. Bu kontekstdə Zəngəzur dəhlizi (TRIPP) ideyası təkcə regional layihə deyil, qlobal əhəmiyyət daşıyan meqalayihə kimi dəyərləndirilir.

Vurğulandığı kimi, müharibədən sonra bu dəhlizin açılması istiqamətində aparılan ardıcıl siyasi xətt artıq konkret nəticələr verməkdədir. Ötən ilin avqustunda Vaşinqtonda


siyasi təsdiqini əldə edən Zəngəzur dəhlizi təşəbbüsü yeni dövrdə Cənubi Qafqaz üçün tamamilə fərqli inkişaf perspektivləri vəd edir. Bu layihə regionun tranzit imkanlarını genişləndirir, iqtisadi inteqrasiyanı sürətləndirir və uzunmüddətli sabitliyin əsas dayaqlarından birinə çevrilir. Azərbaycanın yaratdığı yeni reallıqlar isə bir daha göstərir ki, ölkəmizin apardığı siyasət yalnız milli maraqlara deyil, bütövlükdə regionun inkişafına xidmət edir. Artıq Ermənistan da bu reallığı anlayıb.

Paşinyandan Zəngəzur dəhlizi (TRIPP) açıqlaması...

Belə ki, Ermənistanın Baş naziri Nikol Paşinyan Zəngəzur dəhlizi layihəsinin praktiki icra mərhələsinə keçildiyini bildirib. Paşinyan bu barədə Ermənistan parlamentində hökumətlə sual-cavab sessiyası zamanı danışıb. Baş nazirin sözlərinə görə, əsas addımlardan biri Ermənistanın dövlət sərhədinin cənub hissəsində delimitasiya və demarkasiya işlərinin aparılması olacaq. Həmin sərhəd hissəsinin uzunluğu dəmir yolu, avtomobil yolu, boru kəmərləri və digər nəqliyyat-enerji kommunikasiyalarının çəkilməsi üçün texniki tələblər nəzərə alınmaqla müəyyən ediləcək. Paşinyan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Zəngəzur dəhlizinin texniki parametrlərinin Azərbaycanla razılaşdırılmasının zəruriliyi barədə açıqlamasına da münasibət bildirib.

"Burada bir məqam var: dəmir yolu tikilir və başqa bir dəmir yoluna birləşməlidir. Başa düşürəm ki, biz Mehri ətrafında dövrə vuracaq və heç bir yerə bağlanmayacaq öz suveren dəmir yolumuzu tikmək istəyirik, amma bu, sizin ideyanızdır", - deyə Paşinyan bildirib.

Baş nazir vurğulayıb ki, Ermənistan dəmir yolunun Azərbaycan dəmir yolu ilə birləşdirilməsinin tərəfdarıdır və bunun üçün texniki parametrlər fəal şəkildə razılaşdırılmalıdır. "Məhz buna görə üçtərəfli işçi qrupu yaradılıb", - o əlavə edib.



Qlobal və regional perspektivlər...

Qeyd edək ki, Zəngəzur dəhlizinin (TRIPP) fəaliyətə başlaması həm qlolbal, həm də regional baxımdan böyük üstünlüklər vəd edir. Yeni və daha təhlükəsiz logistika marşrutu olaraq Zəngəzur dəhlizi Avrasiyanın mərkəzində yerləşməklə həm inkişaf etmiş nəqliyyat infrastrukturu, həm də siyasi sabitlik baxımıdan diqqəti cəlb edir. Zəngəzur dəhlizi bütövlükdə Avrasiya məkanında ticarət xəritəsini dəyişdirə biləcək strateji təşəbbüsdür. Azərbaycanın əldə etdiyi qələbə Mərkəzi Asiyadan keçən və Çin iqtisadi məkanını Qərb bazarları ilə birləşdirən ticarət xəttinin məhz bu regiondan keçməsini zəruri etdi. Bu marşrut Çin - Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya - Avropa istiqamətində formalaşan geniş logistika sisteminin əsas komponentlərindən biri ekimi çıxış edir. Azərbaycan isə bu sistemin əsas koordinasiya mərkəzidir - Bakı həm siyasi təşəbbüsləri, həm də həyata keçirdiyi iri infrastruktur layihələri vasitəsilə regionun tranzit potensialını reallaşdırmağa nail olub. Zəngəzur dəhlizi isə bu logistika sisteminin tamamlayıcı elementi kimi xüsusi əhəmiyyət daşıyır. Paralel olaraq Zəngəzur dəhlizi siyasi və geosiyasi baxımdan olduğu qədər iqtisadi cəhətdən də yüksək səmərəlilik indesinə malikdir. Müasir qlobal iqtisadi sistemdə logistika xərclərinin azaldılması və ticarət marşrutlarının optimallaşdırılması dövlətlərin iqtisadi strategiyalarında əsas prioritetlərdən biri hesab olunur. Bu baxımdan, Zəngəzur dəhlizi digər alternativ marşrutlarla müqayisədə bir sıra mühüm üstünlüklərə malikdir.

Yeni enerji marşrutlarının dəstəkçisi...

Zəngəzur dəhlizinin (TRİPP) öz analogiyalarından əsas fərqli genişspektli olmasıdır. Dəhliz yalnız nəqliyyat və logistika layihəsi kimi deyil, həm də enerji əməkdaşlığının genişləndirilməsi baxımından mühüm platforma kimi çıxış edə bilər. təsadüfi deyil ki, Azərbaycan artıq uzun illərdir ki, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Xəzər hövzəsinin enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması üçün həyata keçirilən layihələr ölkəni regionun əsas enerji mərkəzlərindən birinə çevirib. Bu baxımdan yeni nəqliyyat və kommunikasiya marşrutlarının yaradılması enerji layihələrinin də genişlənməsinə əlavə imkanlar yaradır. Müasir dövrdə rejgional konfrantasiyalar zamanı ənənəvi enerji marşurutlarının bağlanmasının təsirləri açıq şəkildə hiss olunur.

Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə yalnız ənənəvi enerji resurslarının deyil, həm də "yaşıl enerji"nin Avropa bazarlarına çatdırılması perspektivləri də mövcuddur. Azərbaycan son illərdə bərpa olunan enerji sahəsində böyük layihələr həyata keçirir və bu istiqamətdə beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edir. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji zonası" elan edilməsi də bu strategiyanın mühüm elementlərindən biridir. Bu baxımdan Zəngəzur dəhlizi (TRIPP) yeni enerji xətlərinin çəkilməsi üçün əlverişli marşrut hesab olunur. Elektrik enerjisi ötürmə xətləri, enerji infrastrukturu və digər texniki layihələr bu dəhliz boyunca inkişaf etdirilə bilər.

Qeyd edək ki, Zəngəzur dəhlizinin (TRIPP) reallaşması birinci növbədə mühüm geocoğrafi situasiya yaradacaq. Yeni iqtisadi nizamda Şərq-Qərb tranzitini birləşdirəcək dəhliz digər region ölkələri üçün də mühüm əhəmiyyət kəsb edir. Çünki dəhlizin Şimal-Cənub xətti ilə perpendikulyar şəkildə kəsişməsi ikinci xətt üzərində olan

Geostrateji imkanlar, perspektivlər...

dövlətlərin də maraq dairəsini buraya istiqamətləndirir. Başqa sözlə, dəhliz ətraf dövlətlərin də iqtisadi maraqlarına cavab verən amil kimi çıxış edir. Eyni zamanda, Zəngəzur dəhlizi (TRIPP) təhlükəsiz marşurut sayılır. İnfrastruktur baxımından da Zəngəzur dəhilizi (TRIPP) olduqca əlverişlidir. Zəngəzur dəhlizinin (TRIPP) ən mühüm üstünlüklərindən biri isə Avropa ilə Asiyanı birləşdirməklə yanaşı, Yaxın Şərq regionuna da yaxınlığıdır. Türkiyə vasitəsilə təkcə Avropaya deyil, eləcə də Yaxın Şərqə çıxış imkanı qazanacaq layihə tərəfdaşları bu üstünlükdən də yararlanmış olacaqlar.

Paralel olaraq bu dəhliz Ermənistanın yeni inkişaf mərhələsinə qədəm qoymasını şərtləndircək. Qeyd edək ki, Zəngəzur dəhlizinin (TRIPP) açılması Ermənistan üçün həm siyasi, həm də iqtisadi dividendlər vəd edir. Belə ki, Zəngəzur dəhlizi Ermənistanın regional ticarət yollarına çıxışını bərpa etməyə və daha böyük iqtisadi məkana inteqrasiya etməyə imkan verəcək. Dəhliz vasitəsilə Ermənistan daha böyük xarici bazarlara çıxış imkanı qazanacaq.

P.İSMAYILOV

20 noyabr 2026-cı il, cümə № 212 (7279)

Parlaq zəkalı iqtisadçı alim-pedaqoq və xeyirxah insan

AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor, Aqil Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi



Böyük təbib və filosof Əbu Əli İbn Sina demişdir: "Mən çox istərdim ki, biləm mən kiməm və bu dünyada nə axtarıram?". Bu sualı bütün zəka sahibləri həmişə özlərinə verirlər. Bu sualın cavabı geniş dünyagörüşünə sahib olan şəxsiyyətlərin daxili aləmlərində, mənəviyyatlarında, yaradıcılıqlarında öz təcəssümünü tapır. AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Aqil Əlirza oğlu Əliyev belə zəka sahiblərindən idi. 100 illik yubileyi ərəfəsində aramızda olmadığı bir zamanda onun haqqında yazmaq, sözsüz ki, çox çətindir. Bu çətinlik onun cismani yoxluğu ilə əlaqədar olsa da, bu böyük insanın yaratdıqları, iqtisad elmi sahəsində zəngin fikirləri ilə bağlı mülahizə və ideyaları bu gün də çox dəyərli və əhəmiyyətlidir. Bu dəyərləri sözlə ifadə etmək heç də asan deyil.

Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Aqil Əlirza oğlu Əliyev sözün əsl mənasında ziyalı idi. Aqil müəllimin ziyalılığı xalqımızın əsrlərdən bəri yolyoldaşı olan mənəviyyatımızı, ədəb-ərkanımızı qoruyub saxlamaqda, onu intellektin işığında həmişə uca tutmaqdadır.

Özünün siması ilə yaddaşlara həkk olunmuş, vətəninə və xalqına ləyaqət və şərəflə xidmət etmiş, ulu yaradanın övladlarına bəxş etdiyi, bütün bəşəri dəyərləri özündə ehtiva edərək ən görkəmli iqtisadçı alimlərimizdən biri əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Aqil Əlirza oğlu Əliyev idi. Aqil Əlirza oğlu Əliyev 1926-cı il dekabrın 10-da vətənimizin ən qədim diyarlarından biri olan Naxçıvanda anadan olmuşdur. Atası - Əliyev Əlirza Cəfər oğlu 1943-cü ildə Naxçıvan şəhərində vəfat etmişdir. Atasının vəfatından sonra ailənin bütün ağırlığı yeniyetmə Aqil Əliyevin üzərinə düşmüşdür. Müharibə illərində arxa cəbhədə çalışaraq çətinliklə ailə üzvlərinə kömək edərdi. Anası İzzət xanım sadə bir evdar qadın kimi öz övladlarının təhsilli olmalarına çox üstünlük verərdi. Namaz qılan və oruc tutan ananın böyük arzusu övladlarını təhsilli görmək idi. O, Məhəmməd peyğəmbərin (ə.) elm beşikdən qəbrədək öyrənməyi müsəlmanlara tövsiyə edən sözlərini övladlarına xatırladırdı. O, Həzrət Əlinin bu sözlərini tez-tez xatırladırdı: "Elm zənginlər üçün bəzək, kasıblar üçün zənginlikdir". Onun övladlarına tez-tez çəkdiyi bu cür misallar öz bəhrəsini verməyə bilməzdi. Odur ki, Aqil Əliyev 1946-cı ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş və 1951-ci ildə oranı bitirmişdir. 1953-cü ilə qədər Azərbaycan EA-nın Tarix İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır.

Onun iqtisad elminə və pedaqoji fəaliyyətə böyük marağı olduğundan 1953-cü il may ayında Azərbaycan Tibb İnstitutunun siyasi iqtisad kafedrasında əmək fəaliyyətinə başlamışdır. Ömrünün sonuna qədər yəni 53 il müddətində həmin universitetin siyasi iqtisad kafedrasında əvvəlcə müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmışdır.

Aqil Əliyevin uzun illər Tibb Universitetində çalışması iqtisadi biliklərin səhiyyə sahəsi ilə əlaqələndirilməsi baxımından da əhəmiyyətli idi. Səhiyyənin təşkili və maliyyələşdirilməsi, tibbi xidmətlərin planlaşdırılması, insan sağlamlığının qorunmasının iqtisadi tərəfləri cəmiyyətin rifahına birbaşa təsir göstərən məsələlərdir. Bu istiqamətlərə diqqət yetirilməsi onun elmi maraqlarının praktik həyatla bağlılığını göstərirdi.

Aqil Əliyev 1970-ci ildə "Şəhər və kənd əhalisinin həyat səviyyəsinin bir-birinə yaxınlaşması problemləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır, 1973-cü ildə dosent vəzifəsinə, 1979-cu ildə professor vəzifəsinə seçilmişdir. O, 1982-ci ildə "Şəxsi istehlakın iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

A.Ə.Əliyevin elmi-pedaqoji fəaliyyəti, xidmətləri ayrı-ayrı dövrlərdə dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 1982-ci ildə əməkdar elm xadimi fəxri adına, "Şöhrət" və "Qırmızı Əmək Bayrağı" ordenlərinə, çoxlu sayda medal, fəxri fərman və təşəkkürnamələrə layiq görülmüşdür.

Aqil Əliyev 200-dən artıq elmi əsərin, o cümlədən 32 monoqrafiya və kitabın müəllifi olmuşdur. Çoxsaylı elmlər namizədlərinin və elmlər doktorlarının yetişməsində əvəzsiz xidmətlər göstərmişdir.

Alimin elmi irsinin dəyəri təkcə əsərlərinin sayı ilə deyil, araşdırdığı problemlərin əhatə dairəsi ilə də müəyyən olunur. Şəxsi istehlak, əhalinin həyat səviyyəsi və aqrar inkişaf kimi mövzular iqtisadi göstəricilərlə yanaşı, insanların gündəlik yaşayış şəraitini və sosial imkanlarını anlamağa kömək edir. Bu səbəbdən onun əsərlərinin mövzu və istiqamətlər üzrə sistemləşdirilməsi gələcək tədqiqatçılar üçün faydalı elmi mənbə ola bilər.

Azərbaycanda ilk dəfə olaraq "Şəxsi istehlakın iqtisadiyyatı və problemləri", "Aqrar iqtisadiyyatın aktual problemləri", "Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi problemləri" və digər sanballı monoqrafiyaların müəllifidir.

Aqil müəllimin bir alim kimi qoyub getdiyi elmi-pedaqoji irsini bir məqalədə əhatə etmək çətindir. Lakin elmi ideyaları bilavasitə praktikaya tətbiq edən bir alim kimi xalqımızın tarixində özünəməxsus yer tutur.

Elmi irsin davamlılığı onu yeni nəsillərin öyrənməsi və müasir elmi müzakirələrə daxil etməsi ilə bağlıdır. Aqil Əliyevin əsərlərinin yenidən nəzərdən keçirilməsi, biblioqrafiyasının dəqiqləşdirilməsi və elmi baxışlarının dövrün sosial-iqtisadi şəraiti ilə əlaqəli təhlili onun fəaliyyətinin daha dolğun qiymətləndirilməsinə imkan verir.

Ulu Öndərimiz Heydər Əliyevin sözləri ilə desək: "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur". Belə zəka sahiblərindən biri də Aqil müəllim olmuşdur.

Aqil müəllimin zəngin elmi-pedaqoji təcrübəsi, təfəkkürün məntiqliyi, natiqliyi, əməldə fəzilətliyi və xeyirxahlığı, fəaliyyətdə mübarizliyi və tükənməz səbri sayəsində insanlıq zirvəsini fəth etmişdir. Bu zirvə yalnız müdrik insanlara nəsib ola bilər.

Aqil müəllim bir çoxlarının dərdinə çarə tapan, işinə yarayan insan idi. O, insanın düşüncəsinin aydınlığını, şəffaflığını, saflığını sevən idi. Belə adamlarla ünsiyyətdə onun münasibətinin üzünün zərif, tələtümsüz, təbəssümündən sezmək olurdu. O, heç kəsə ağır söz deməz, yaraya köz basmazdı. O, yaxşı bilirdi ki, tikanlı söz qəlbi qırır, sındırır, insanın ruhi aləmini zədələyir.

Aqil müəllim sözünün qədir qiymətini bilən idi. O, sözü zərgər dəqiqliyi ilə seçər, onu hədəfə vurardı. O, sözünün ağası idi. Onun sözü ilə əməli həmişə üst-üstə düşürdü. İllər keçir, zaman dəyişir, çoxları zamana uyğun hərəkət etməyə çalışır, o isə dəyişməz idi. Ona görə də o, daim qərarlı, sakit, iradəli və seçmək qabiliyyətinə malik , seçdiyini sevən, ona vurulan, ona tapınan bir insan idi. Aqil müəllim hadisələri safçürük etməyi, onun səbəblərini aşkara çıxarmağı, çevik hərəkətlə ona cavab verməyi bacaran bir ziyalı idi. Bu çeviklik ona həmişə cəsarət, güc, şərəf gətirirdi.

Aqil müəllim sadə, təbii bir insan idi. Onun şəxsiyyəti haqqında o qədər maraqlı faktlar var ki, bəzən bilmirsən hansını deyəsən, hansını yazasan. O, xeyirxahlığı, prinsipiallığı və mərhəmətliliyi özündə təcəssüm etdirən nurlu bir sima idi. Xalqımızın ən gözəl xüsusiyyətləri olan insana yaxşılıq etmək, qayğı göstərmək Aqil müəllimin əqidə manifesti, həyat devizi idi. O, insanlara qayğı göstərirdi, onların işinə yarayırdı. Bu onun həyatını mənalandırırdı, dəyərini, qiymətini yüksəldirdi. Aqil müəllim sözün əsl mənasında bir çox insanlar üçün ümid yeri idi. N.Tusinin belə bir fkrini yada salmaq çox yerinə düşərdi: "Başqasına etdiyin yaxşılığı unuda bilərsən, ancaq sənə edilən yaxşılığı unutmamalısan". Bu fikir həmişə mənim qəlbimdə yaşayır. Onun insanlara səmimi, xeyirxah və qayğıkeş münasibəti bizim üçün əbədi bir örnəkdir.

Aqil müəllim həddən artıq tələbkar idi. O, biganəliyi xoşlamırdı. Elinin, obasının qədrini bilən idi, xalqa xidməti həyatının məna və məqsədi hesab edirdi. Aqil müəllim saf əqidəsi və məsləki olan ziyalı idi. Onun əqidəsi humanizmə, həqiqətə, ədalətə söykənirdi.

Aqil müəllim öz müdrikliyi, zəkası, dünyanı dərketmə qabiliyyəti ilə başqalarından fərqlənən vətəndaş, alim-ziyalı idi. Antik dövr filosofu Epikürün şagirdləri onları müəlliminə bağlayan nədir sualına belə cavab vermişdilər: "Bizi Epikürə bağlayan onun həmişə özü-özünə bərabər olmasıdır". Bu epitet tamamilə Aqil müəllimə aiddir: o həmişə özü-özünə bərabər idi, təkrarsız idi!

Aqil müəllim insanlığı, şəxsiyyəti, səmimiyyəti uca tutub qiymətləndirən, onu qorumağı bacaran nadir bir şəxsiyyət idi. O, adamlar arasında özünün ən ülvi keyfiyyətləri ilə seçilən, sayılan idi. Təbiətən sakit, mülayim, həddən artıq nəvazişli və qayğıkeş idi.

İşlədiyi müddətdə onun xalq və vətən qarşısında xidmətləri layiqincə qiymətləndirilmişdir. Onun əmək fəaliyyətində çox gərgin illər də olmuşdur.

Azərbaycan KP MK-nin o zamankı rəhbərliyinin nadanlığı nəticəsində professor A.Əliyev heç bir əsas olmadan 1988-ci ildə işdən uzaqlaşdırılaraq təqaüdə göndərilmişdir.

Lakin çox keçmədən bu səhv dərk edilmiş və professor A.Əliyev 1992-ci ildə yenidən elmi-pedaqoji fəaliyyətə qaytarılmışdır. 1998-ci il ATU-da "İqtisadiyyat və hüququn əsasları" kafedrasının müdiri vəzifəsində ömrünün sonuna qədər çalışmışdır.

1996-cı ildə A.Əliyev Beynəlxalq Enerji İnformasiya Elmlər Akademiyasının Azərbaycan bölməsinin həqiqi üzvü - akademik seçilmişdir.

O, 2001-ci il AMEA-nın müxbir üzvü seçilmişdi. 2003-cü ildə A.Ə.Əliyev Beynəlxalq Menecment Akademiyasının həqiqi üzvü, 2006-cı ilin yanvar ayında A.Əliyev Beynəlxalq İqtisadçılar İttifaqının üzvü seçilmişdir.

A.Ə.Əliyev 1986-2005-ci illərdə Azərbaycanın elmi-texniki inkişafının kompleks proqramının işlənilməsində yaxından iştirak etmişdir. Əhalinin sağlamlığının qorunması haqqında problemi komissiyasının sədri olmuşdur. Əhalinin sağlamlığının qorunması bölməsinin proqramı onun tərəfindən tərtib edilərək kompleks proqrama daxil edilmişdir. O, həmçinin Azərbaycanda məhsuldar qüvvələrin yerləşdirilməsinin inkişaf sxeminin işlənib tərtib olunmasının müəlliflərindən biri olmuşdur.

Professor A.Ə.Əliyev elmi-pedaqoji institutlar və universitetlər üçün "İqtisadi nəzəriyyə" kursu üzrə yazılmış 2 cildlik dərsliyin müəlliflərindən biri olmuşdur.

Ali məktəbdə müəllimlik fəaliyyəti alimin irsinin mühüm hissəsidir. Dərsliklərin hazırlanması, tələbələrin bilik və dünyagörüşünün formalaşdırılması, elmi kadrların yetişdirilməsi uzunmüddətli nəticələr yaradan işlərdir. Bu baxımdan Aqil Əliyevin pedaqoji fəaliyyəti onun elmi nailiyyətləri ilə birlikdə qiymətləndirilməlidir.

A.Ə.Əliyev geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş müxtəlif jurnal və qəzetlərdə yüzlərlə elmi-kütləvi və publisistik məqalələrin müəllifi olmuşdur.

A.Əliyev yüksək ixtisaslı iqtisadçı və tibb kadrlarının hazırlanmasındakı xidmətlərinə görə 1982-ci ildə əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Professor A.Ə.Əliyevin ictimai fəaliyyəti də çox zəngin olmuşdur. O, dəfələrlə rayon və universitet partiya komitələrinin büro üzvü seçilmiş, bu təşkilatlarda çox fəallıq göstərmişdir.

O, "Şəxsi istehlakın iqtisadiyyatı və problemləri", "Aqrar iqtisadiyyatının aktual problemləri", "Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi problemləri", "Səhiyyədə iqtisadiyyat, planlaşdırma, idarəetmə, maliyyələşdirmə və əməyin elmi təşkili", "ASK-nın aqrar bölməsində elmi-texniki tərəqqini sürətləndirmə problemləri" və sair sanballı monoqrafiyaların müəllifidir.

Yalnız bazar iqtisadiyyatına keçid şəraitində A.Ə.Əliyevin 80 elmi əsəri çap olunmuşdur. Onlardan "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu", "İpək Yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur", "Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri", "Səhiyyənin iqtisadiyyatı", "Azərbaycanda əhalinin səviyyəsinin yüksəldilməsinin aktual problemləri", "Naxçıvan Muxtar respublikası: nailiyyətlər, problemlər" I və II cild, "Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti", "Bələdiyyələr. Metodik kömək", "Dünya iqtisadiyyatı: müasir dövrün problemləri", "Müstəqil Azərbaycan iqtisadiyyatının aktual problemləri" və sair sanballı kitabları yazmışdır.

Professor A.Ə.Əliyev zəhmətlə dolu ibrətamiz bir həyat yolu keçmiş, həyatını bütövlükdə xalqımızın və vətənimizin tərəqqisinə həsr etmişdir. O, ATU-nun və Respublikamızın ictimai-həyatında yaxından iştirak etmişdir. Çox təəssüf ki, amansız ölüm onu sıralarımızdan tez apardı. Görkəmli iqtisadçı alim, peşəkar pedaqoq, gözəl insani keyfiyyətləri, humanistliyi, ədalətliliyi, prinsipiallığı ilə yaddaşlarda iz və işıqlı bir xatirə qoyub getmişdir.

Bu gün onun irsinin yaşadılması üçün elmi əsərlərinin biblioqrafiyasının hazırlanması haqqında yazılmış xatirələrin toplanması və tədqiqatlarının gənc alimlər üçün əlçatan edilməsi məqsədəuyğun olardı. Belə təşəbbüslər keçmişə ehtiramı elmi fəaliyyətlə birləşdirər, alimin təcrübəsinin və ideyalarının gələcək nəsillərə ötürülməsinə xidmət edər.

Bütün həyatı boyu saflıq, əməksevərlilik və insansevərlilik mücəmməsi olan Aqil müəllimin əziz xatirəsi onu istəyənlərin qəlbində daim yaşayacaqdır. Cəlaləddin Ruminin bir sözü var ki, öləndən sonra məni torpaqda yox, insanların qəlbində axtarın. Bu sözlər dostlarının, həmkarlarının, tələbələrinin, bütün xalqımızın ürəyində nəcibliyi, kamilliyi, böyüklüyü ilə əbədi yer tutmuş professor Aqil Əliyevə tam layiq ifadədir.

Aqil müəllim cəmiyyətimiz tərəfindən birmənalı şəkildə qəbul edilən, hamı tərəfindən sevilən bir ağsaqqallıq zirvəsində 2006-cı il martın 7-də dünyasını dəyişdi. İnsanların qəlbində yaşayan, həmişə axtarılan, yeri görünən, hər zaman xoş məramla xatırlanan Aqil müəllimə, Allah rəhmət etsin!

QOŞQAR ƏLİYEV,
ATU-nun İctimai fənlər kafedrasının müdiri,
fəlsəfə elmləri doktoru, professor

2027-ci ildə 9,2 milyard manatdan çox...

Pensiya və müavinət xərcləri artırılacaq

2027-ci ilin icmal büdcəsinin mühüm tərkin hissəsi olan "Dövlət sosial müdafiə fondunun 2027-ci il büdcəsi haqqında" layihəyə əsasən, gələn il Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri 9 milyard 220,5 milyon manat, xərcləri isə 9 milyard 272,54 milyon manat proqnozlaşdırılır. Gəlirlər 2026-cı ilin təsdiq edilmiş göstəricisindən 897,4 milyon manat və ya 10,78 faiz çoxdur. Fondun gəlirlərinin əsas mənbəyi məcburi dövlət sosial sığorta haqları olacaq. Bu istiqamət üzrə 7 milyard 586,5 milyon manat daxilolma gözlənilir. Məbləğ fondun ümumi gəlirlərinin 82,28 faizini təşkil edəcək və 2026-cı ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 995,4 milyon manat və ya 15,1 faiz çox olacaq.

DSMF-nin gəlirlərində əsas fiskal mənbə qeyri-büdcə sektoru və ya özəl təşkilatların ödənişləri olacaq. Həmin sektor üzrə 5 milyard 119,5 milyon manat vəsait toplanması nəzərdə tutulur. Təkcə özəl bölmədə çalışan fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin ödəyəcəkləri məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 130 milyon manat proqnozlaşdırılır. Büdcədən maliyyələşən təşkilatlar üzrə proqnoz 2 milyard 170,96 milyon manat, büdcədən maliyyələşən təşkilatlarda işləyən şəxslər üzrə isə 296,04 milyon manat proqnozlaşdırılıb. Bu sxem üzrə fondun portfelində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 32,5 faizi büdcə təşkilatlarının, 67,5 faizi isə qeyri-büdcə sektorunun payına düşəcək.

2027-ci ildə DSMF-nin xərcləri 9 milyard 272,54 milyon manat proqnozlaşdırılır. Bu, 2026-cı ilin təsdiq edilmiş göstəricisindən 789,47 milyon manat və ya 9,31 faiz çoxdur. Xərclərin böyük bir hissəsi - təxminən 8 milyard 670 milyon manatı əmək pensiyalarının ödənilməsinə, 280 milyon manatı isə sosial sığorta haqları hesabına verilən müavinətlərə yönəldiləcək. Əmək pensiyaları üzrə vəsaitin həcmi 2026-cı ilin təsdiq edilmiş göstəricisindən 676,55 milyon manat və ya 8,46 faiz çoxdur. Həmin xərc ssenarilərinə əsasən, 2027-ci ildə orta aylıq əmək pensiyasının 7,5 faiz artaraq 639 manata çatacağı gözlənilir. Fondun hesablamalarına görə, əmək pensiyaçılarının ümumi sayının 2027-ci ildə 718,39 min nəfər olacağı gözlənilir.

Pensiya xərclərinin artması əsasən yaşa görə, əlilliyə görə və ailə başçısını itirməyə görə əmək pensiyalarının maliyyələşdirilməsi ilə bağlıdır.

Dövlət büdcəsindən 1,6 milyard manat transfert

Fondun maliyyə dayanıqlılığının təmin edilməsi və büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsindən 1 milyard 600 milyon manat ayrılması nəzərdə tutulur. Bu vəsait dövlət büdcəsinin əmək pensiyaları üzrə qanunvericiliklə müəyyən edilmiş öhdəliklərinin maliyyələşdirilməsinə yönəldiləcək. Həmin öhdəliklərin ümumi məbləği 2027-ci il üçün 3 milyard 831,72 milyon manat hesablanıb. Dövlət büdcəsindən ayrılacaq 1,6 milyard manat bu məbləğin 41,76 faizini təşkil edir. Dövlət büdcəsinin öhdəlikləri üzrə vəsait 2026-cı ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 100 milyon manat və ya 5,88 faiz az olacaq.



Gələn il sosial müavinət xərclərinin isə cari ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 37,85 faiz artacağı gözlənilir. Belə ki, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə 47,38 milyon, hamiləliyə və doğuma görə - 77,34 milyon, uşağın anadan olmasına görə 84 milyon, 3 yaşınadək uşağa qulluğa görə 21,39 milyon manat, dəfn üçün 50,51 milyon manat müavinət ödənilməsi nəzərdə tutulur. Ən böyük vəsait uşağın anadan olmasına görə müavinətlərə ayrılacaq. Belə ki, növbəti ildən uşağın anadan olmasına görə müavinətin məbləği 1500 manat təşkil edəcək. 2026-cı ildə bu rəqəm 600 manatdır.

Orta aylıq pensiya 639 manata çatacaq

Hərbçilərin həyat yoldaşlarına müavinət verilə bilər

Gələn il sosial sahədə gözlənilən təşəbbüslərdən biri yeni xidmət yerinə köçən hərbçilərin həyat yoldaşlarına minimum əməkhaqqı məbləğində müavinət ödənilməsi təklifidir. Bununla bağlı "Hərbi qulluqçuların statusu haqqında" qanuna dəyişikliklər təklif olunub. Layihəyə əsasən, hərbi qulluqçunun yeni xidmət yerinə köçməsi nəticəsində həyat yoldaşının həmin ərazidə işlə təmin olunması mümkün olmadıqda, ona minimum aylıq əməkhaqqı məbləğində pul müavinəti ödənilməsi nəzərdə tutulur. Həmin təklif parlament tərəfindən hələlik qəbul edilməyib, ancaq təşəbbüsün dəstəklənəcəyi istisna olunmur.

E.CƏFƏRLİ

Tarixdə ilk dəfə...

19 noyabr 2026-cı il dünyanın siyasi tarixində mühüm bir hadisə ilə yadda qaldı - Çinin Şençjen şəhərində tarixdə ilk dəfə Çin Xalq Respublikasının Sədri Si Cinpin, ABŞ Prezidenti Donald Tramp və Rusiya Prezidenti Vladimir Putinin üçtərəfli görüşü baş tutub. Danışıqlar Çin dövlət başçısının iqamətgahında keçirilib. Görüşdən əvvəl üç ölkənin liderləri mətbuat üçün şəkil çəkdiriblər və sonra dəyirmi masada yerlərini tutublar.

Çin, Rusiya və ABŞ prezidentləri eyni masa arxasında...

Görüşdən öncə...

Qeyd edək ki, "South China Morning Post" qəzeti bildirmişdi ki, görüşün gündəliyi ilə bağlı müzakirələr bir neçə həftədir davam edir. Əsas mövzu nüvə silahlarının idarə edilməsi sistemlərində süni intellektin istifadəsi və nüvə qüvvələrinin istifadəsi ilə bağlı qərarlar üzərində insan nəzarətinin saxlanılması zərurəti olub. Qəzet nüvə müharibəsinin yolverilməzliyi ilə bağlı birgə bəyanatın mümkünlüyü barədə də yazmışdı. Ukrayna - Rusiya münaqişənin üçtərəfli görüşün gündəliyində olub-olmayacağı isə açıq sual olaraq qalmışdı - "Reuters" agentliyi Pekinin hazırlıqlar zamanı bu mövzunun sammitin gündəliyinə daxil edilməsinə qarşı çıxdığını iddia etmişdi. Agentliyin məlumatına görə, Çin bu münaqişəyə qarışmadığını və ABŞ və Rusiyanın bu barədə öz aralarında müzakirə etmələrini üstün tutduğunu bildirmişdi.

Si Cinpin: Biz birlikdə çiçəklənirik və əziyyət çəkirik...

Qeyd edək ki, görüşdən öncə hər bir lider salamlama nitqi ilə çıxış edib. Çin lideri Si Cinpin çıxışında nüvə silahlarının tamamilə qadağan və ləğv edilməsinə çağırış edib. "Nüvə silahları bəşəriyyətin başı üzərində asılmış Damokl qılıncıdır. Nəticədə nüvə silahlarından azad bir dünya yaratmaq üçün onlar tamamilə qadağan edilməli və tamamilə aradan qaldırılmalıdır", - deyə o bildirib. Çinin Sədri Rusiya, ABŞ və Çin arasında ilk üçtərəfli görüşün əhəmiyyətini vurğulayıb və ölkələrin başqaları üçün nümunə olmalı olduğunu deyib: "Bu formatda ilk üçtərəfli sammit həqiqətən irəliləyişdir".

Çin liderinin sözlərinə görə, böyük ölkələr arasında yaxşı münasibətlər dünyanı daha təhlükəsiz edir, qarşıdurma isə dünyanı xaosa sürükləyir. Si Cinpin üç ölkənin faşizm üzərində böyük qələbəsini xatırladaraq, tarixi yaddaşı qorumağa və ona əsaslanan ortaq gələcək qurmağa çağırıb. O qeyd edib ki, Rusiya, ABŞ və Çin qlobal çağırışlara birgə cavab verməklə və dünya sülhünü və sabitliyini qorumaqla layiqli nümunə göstərməlidirlər.

Si Cinpin açılış nitqində üç gücün məsuliyyətini, rolunu və digər ölkələrə təsirini vurğulayıb. "Mən tez-tez deyirəm ki, bəşəriyyət bir qlobal kənddə yaşayır. Biz birlikdə çiçəklənirik və əziyyət çəkirik. Biz eyni taleyi bölüşürük. Bu qlobal kənddə böyük ölkələr beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün xüsusi məsuliyyət daşıyırlar", - deyə o bildirib.

Vladimir Putin: Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün ortaq məsuliyyət

Rusiya Prezidenti Vladimir Putin ABŞ Prezidenti Donald Trampla ikitərəfli görüşündə Ukrayna məsələsinin müzakirə edildiyini bildirib. O qeyd edib ki, müzakirə ABŞ prezidentinin təşəbbüsü ilə keçirilib. Putin bir gün əvvəl Çinin Sədri Si Cinpinlə də Ukrayna münaqişəsini müzakirə etdiyini qeyd edib. "Ölkələrimizin regional münaqişələrin həllində bir çox ortaq maraqları var. Əlbəttə ki, Ukraynadakı münaqişə də daxil olmaqla", - deyə Putin bildirib.

Putin, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan Rusiya, Çin və ABŞ liderlərinin iştirakı ilə bu miqyaslı ilk görüşü təşkil etdiklərinə görə Çin tərəfinə və şəxsən Si Cinpinə təşəkkür edib. Rusiya Prezidenti üç ölkənin vəzifəsini BMT Nizamnaməsi və orada təsbit edilmiş prinsiplər də daxil olmaqla, mövcud beynəlxalq hüquq sisteminin qorunması və gücləndirilməsi kimi təsvir edib. "Üç dövləti təkcə İkinci Dünya müharibəsində qalib ölkələr statusu deyil, ən əsası beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün ortaq məsuliyyətlər birləşdirir", - deyə Rusiya Prezidenti bildirib.



O, həmçinin üç dövlətin beynəlxalq terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq və digər təhdidlərlə mübarizədə ortaq maraqlarını qeyd edib. "Əminəm ki, Rusiya, Çin və ABŞ, xalqlarımız, qarşılıqlı hörmət, bərabərlik və maraqlar balansına əsaslanan konstruktiv və tərəfdaşlar kimi əməkdaşlıq edərsə, təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə əhəmiyyətli töhfə verə bilərlər", - deyə Putin vurğulayıb.

Donald Tramp: Yeni imkanlar tapmaq və daha yaxşı gələcək yaratmaq üçün şans

Görüşdən öncə çıxışında ABŞ Prezidenti Donald Tramp liderlərin müzakirə edəcəkləri çox şeyin olduğunu söyləyib. "Əminəm ki, tarix yazacağıq. Çox şey müzakirə etdik və hələ də müzakirə edəcək çox şeyimiz var", - deyə Tramp bildirib və qeyd edib ki, üç ən böyük iqtisadiyyatın liderləri olaraq yalnız xalqlarımıza deyil, bütün planetə təsir edən ən vacib məsələlər üzrə dialoq aparmaq üçün xüsusi məsuliyyət daşıyırlar. Tramp görüşü tarixi adlandıraraq qeyd edib ki, sammit yeni imkanlar tapmaq və daha yaxşı gələcək yaratmaq şansı təqdim edir. Salamlama nitqlərindən sonra görüşün qapalı iclası başlayıb.

Sülh haqqında Bəyannamə imzalanıb

Çin, Rusiya və ABŞ təşkilatın qlobal çağırışlara daha effektiv cavab verə bilməsi üçün BMT-də islahatların aparılmasını dəstəkləyiblər.

Bu barədə Şençjendə keçirilən üçtərəfli görüşün yekunlarına əsasən qəbul edilmiş Rusiya, Çin və ABŞ liderlərinin sülh haqqında Bəyannaməsində bildirilib.

"BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olaraq Rusiya, Çin və ABŞ BMT-nin qlobal çağırışlara daha səmərəli reaksiya verə bilməsi və beynəlxalq sülh və təhlükəsizlik sahəsindəki əsas missiyasına uyğun gəlməsi üçün təşkilatın islahatına sadiq olduqlarını ifadə ediblər", - Kreml Bəyannamədən çıxarışları təqdim edib.

Ümumilikdə bəyannamə 4 bənddən ibarətdir.

Bundan əlavə, üç dövlətin liderləri bütün ölkələrin rifahı naminə neft emalı məhsullarının istehsalını və tədarükünü artırmaq barədə razılığa gəliblər, onlar sabit enerji tədarükünün vacibliyini təsdiqləyiblər.

Liderlər qeyd ediblər ki, dövlətlərin razılığı prinsipi və rəsmi şəxslərinin immunitetlərinə riayət olunması fundamental əhəmiyyət kəsb edir. Onlar Beynəlxalq Cinayət Məhkəməsinin və digər analoji strukturların səlahiyyətlərindən sui-istifadə etməməli olduğu ilə razılaşıblar.

Bundan başqa, liderlər təsdiqləyiblər ki, nüvə müharibəsində qaliblər ola bilməz və o, heç vaxt başladılmamalıdır. Bununla əlaqədar olaraq, üç ölkə nüvə risklərinin azaldılması və nüvə silahının yayılmasının qarşısının alınması üzrə dialoq aparacaq.

P.İSMAYILOV

Sinqapur: bir adanın böyük uğur hekayəsi

Li Kuan Yu ölkəsini necə dəyişdi?

Dəniz sahilində yerləşən kiçik bir ölkə necə dünyanın ən zəngin və inkişaf etmiş dövlətlərindən birinə çevrildi? Bu sualın cavabı Sinqapurun keçmişində və onun qurucusu Li Kuan Yunun həyata keçirdiyi siyasətdə gizlənir.

Bu gün Sinqapur deyəndə insanların ağlına müasir göydələnlər, təmiz küçələr, dünyanın ən böyük limanlarından biri, beynəlxalq banklar, yüksək texnologiyalar və güclü iqtisadiyyat gəlir. Turistlərin böyük maraq göstərdiyi bu şəhər-dövlət indi dünyanın ən inkişaf etmiş ölkələri sırasında yer alır. Ancaq cəmi bir neçə onillik əvvəl vəziyyət tam başqaydı. 1965-ci ildə müstəqillik qazanan Sinqapurun qarşısında çox çətin problemlər dayanırdı. Ölkənin neft, qaz və digər mühüm təbii sərvətləri yox idi. Ərazisi kiçik, daxili bazarı məhdud, işsizlik səviyyəsi yüksək idi. Əhalinin bir hissəsi yoxsul məhəllələrdə, lazımi şəraiti olmayan evlərdə yaşayırdı. Ən ciddi məsələlərdən biri isə ölkənin gələcəkdə necə yaşayacağıydı. Məhz belə bir vaxtda Sinqapurun taleyini dəyişdirəcək siyasi xətt formalaşmağa başladı. Bu xəttin əsas müəllifi isə ölkənin ilk baş naziri Li Kuan Yu idi.

Müstəqillik ölkəyə nə verdi, nəyi əlindən aldı?

Li Kuan Yu 1923-cü ildə Sinqapurda anadan olmuşdu. Hüquq təhsili almış, bir müddət vəkil işləmişdi. Siyasi fəaliyyətə qoşulandan sonra 1954-cü ildə Xalq Fəaliyyəti Partiyasının yaradılmasında iştirak etmişdi. 1959-cu ildə ölkəsi özünüidarə hüququ əldə edəndə baş nazir vəzifəsinə gəlmişdi. Həmin dövrdə Sinqapur hələ müstəqil dövlət deyildi. 1963-cü ildə ölkə Malayziya Federasiyasına qoşuldu. Lakin siyasi, iqtisadi və etnik ziddiyyətlər bu birliyin davam etməsinə imkan vermədi. 9 avqust 1965-ci ildə Sinqapur Malayziyadan ayrılıb müstəqil dövlət oldu. Bu ayrılıq heç də asan qazanılmış müstəqillik kimi qarşılanmadı. Ölkənin gələcəyilə bağlı ciddi narahatlıqlar vardı. Sinqapurun ətrafında daha böyük dövlətlər yerləşirdi, öz resursları isə son dərəcə məhdud idi. Hətta su təchizatı kimi gündəlik həyat üçün vacib məsələlərdə də qonşu Malayziyadan asılılıq vardı.



Li Kuan Yu sonralar həmin dövrü ölkənin ən ağır günlərindən biri kimi xatırlayırdı. Qarşıda iki yol vardı: ya mövcud problemlər ölkəni zəiflədəcəkdi, ya da hökumət bu çətinlikləri inkişaf üçün başlanğıca çevirəcəkdi.

Li Kuan Yudan sonra Sinqapur necə dəyişdi?

Li Kuan Yu 1990-cı ildə baş nazir vəzifəsindən ayrıldı. Lakin siyasətdən tamam getmədi, müxtəlif dövlət vəzifələrində fəaliyyətini davam etdirdi. 2015-ci il mart ayının 23-də 91 yaşında vəfat etdi. Onun qurduğu siyasi və iqtisadi sistem sonrakı rəhbərlərin dövründə də inkişaf etdirildi. Qoh Çok Tonq və daha sonra Li Syan Lunq hökumətləri Sinqapurun iqtisadi mövqeyini gücləndirmək, texnologiya və maliyyə sektorlarını genişləndirmək istiqamətində fəaliyyət göstərdilər. Bu gün Sinqapur artıq yalnız istehsal və liman ölkəsi deyil, beynəlxalq maliyyə, biotexnologiya, rəqəmsal xidmətlər, logistika və innovasiyalar sahəsində mühüm mərkəzdir.

Sərvətimiz yoxdur, bəs nəylə zənginləşək?

Sinqapur rəhbərliyi çox vacib bir qərar verdi: ölkənin əsas sərvəti insan olmalıydı. Hökumət başa düşürdü ki, böyük neft yataqları, geniş əkin sahələri və faydalı qazıntılar olmadan da iqtisadiyyat qurmaq mümkündür. Bunun üçün xarici şirkətləri ölkəyə gətirmək, yeni zavodlar açmaq, iş yerləri yaratmaq və insanlara müasir peşələr öyrətmək lazım idi. 1960-cı illərin sonlarından başlayaraq Sinqapur xarici investorlara qapılarını açdı, beynəlxalq şirkətlər üçün əlverişli vergi və biznes şəraiti yaradıldı. Dövlət investorlara aydın qaydalar, sabit idarəçilik və infrastruktur təklif edirdi. ABŞ-ın Texas Instruments, Fairchild və Hewlett-Packard kimi şirkətləri Sinqapurda fəaliyyətə başladı. Elektronika və istehsal sənayesi sürətlə inkişaf etdi.

Bu siyasətin nəticəsində ölkə tədricən ucuz əmək qüvvəsinə əsaslanan istehsaldan daha mürəkkəb texnologiyalara, maliyyə xidmətlərinə və yüksək əlavə dəyər yaradan sahələrə keçdi. Sinqapurun əsas üstünlüyü yalnız xarici şirkətlərin gəlməsi deyildi, hökumət yerli işçilərin də həmin müəssisələrdə işləyə bilməsi üçün təhsil və peşə hazırlığına diqqət ayırırdı. Başqa sözlə, ölkəyə gətirilən sərmayə ilə yanaşı, insanların bilik və bacarıqlarına da sərmayə qoyulurdu.

Korrupsiyaya qarşı sərt mübarizə: qanun hamı üçün eynidirmi?

Sinqapurun uğurundan danışarkən korrupsiyaya qarşı mübarizəni qeyd etməmək mümkün deyil. Li Kuan Yu dövlət idarəçiliyində rüşvətin ölkənin inkişafına ciddi maneə olduğunu düşünürdü. Onun rəhbərliyi dövründə korrupsiyaya qarşı mübarizə gücləndirildi, dövlət qulluqçularının fəaliyyəti üzərində nəzarət artırıldı və hüquq-mühafizə orqanlarının imkanları genişləndirildi. Sinqapurda dövlət qulluğuna qəbul zamanı şəxsi tanışlıqdan daha çox bilik və bacarıqlara üstünlük verilməsi əsas prinsipə çevrildi. Dövlət qulluqçularının əməkhaqlarının rəqabətədavamlı səviyyədə saxlanması da rüşvət riskinin azaldılması vasitələrindən biri hesab olunurdu. Nəticədə, Sinqapur beynəlxalq korrupsiya göstəricilərində uzun illər ən yaxşı nəticə göstərən ölkələrdən birinə çevrildi.

Lakin burada bir məqamı da unutmaq olmaz: Li Kuan Yu dövründə ölkədə siyasi rəqabət, mətbuat azadlığı və müxalifətin fəaliyyətiylə bağlı ciddi məhdudiyyətlər vardı. Onun idarəçilik üsulu bəzən sərt və avtoritar xarakterinə görə tənqid olunurdu. Beləliklə, Sinqapur təcrübəsi yalnız uğurların yox, mübahisəli qərarların da tarixidir. Ölkənin iqtisadi inkişafını qiymətləndirərkən siyasi azadlıqlar və insan hüquqları məsələlərini də nəzərə almaq lazımdır.

Sinqapur təcrübəsindən hansı nəticəni çıxarmaq olar?

Sinqapurun tarixini öyrənərkən bir həqiqət aydın görünür: ölkənin kiçikliyi onun böyük məqsədlər qarşısında dayanmasına mane olmur. Təbii sərvətlərin azlığı da inkişafın qarşısını mütləq şəkildə almır. Əsas məsələ mövcud imkanlardan necə istifadə etmək, insanları necə yetişdirmək və dövlət institutlarını necə qurmaqdır. Əlbəttə, Sinqapur modelini bütün ölkələr üçün hazır resept saymaq olmaz; onun tarixi şəraiti, coğrafiyası, siyasi sistemi və əhali quruluşu başqalarından fərqlənir. Xüsusilə siyasi azadlıqlar və dövlət nəzarətiylə bağlı təcrübəsi ciddi müzakirələr doğurur. Ancaq bu ölkənin uğurundan öyrəniləcək mühüm məqamlar var: keyfiyyətli təhsil, peşəkar dövlət qulluğu, korrupsiyaya qarşı ardıcıl mübarizə, investisiyalar üçün etibarlı şərait, müasir infrastruktur və uzunmüddətli iqtisadi planlaşdırma.

Bir vaxtlar gələcəyi sual altında olan kiçik ada bu gün dünyanın ən tanınmış iqtisadi mərkəzlərindən biridir. Sinqapurun hekayəsi göstərir ki, ölkənin taleyini dəyişmək üçün böyük təbii sərvət yiyəsi olmaq yetmir. Ən vacib sərvət düzgün yetişdirilmiş insan, düzgün işləyən dövlət və gələcəyi düşünən idarəçilikdir.

İnsanların həyatını dəyişən mənzil siyasəti

Sinqapur hökuməti bir məsələnin də fərqindəydi: iqtisadiyyat böyüsə də, insanların yaşayış şəraiti yaxşılaşmasa, inkişafın nəticələri cəmiyyətə tam çatmayacaq. Müstəqilliyin ilk illərində ölkədə mənzil çatışmazlığı ciddi problem idi, minlərlə insan sıx məskunlaşmış, sanitar şəraiti zəif olan məhəllələrdə yaşayırdı. Hökumət bu problemi həll etmək üçün geniş tikinti proqramına başladı, mənzil və İnkişaf Şurası vasitəsilə çoxmərtəbəli yaşayış binaları tikildi. Yeni yaşayış məhəllələrində məktəblər, tibb müəssisələri, mağazalar və ictimai xidmət obyektləri yaradıldı. Bu proqram nəticəsində minlərlə ailə daha yaxşı mənzil şəraitiylə təmin edildi. Maraqlı cəhət ondan ibarət idi ki, hökumət yalnız binalar tikməklə kifayətlənmirdi, müxtəlif etnik qrupların eyni yaşayış məhəllələrində yerləşdirilməsiylə cəmiyyətdə birlik və qarşılıqlı münasibətlərin gücləndirilməsinə də çalışırdı. Bu gün Sinqapurda mənzil siyasəti ölkənin sosial modelinin əsas hissələrindən biri hesab olunur.

Kiçik ölkə necə dünya ticarətinin mərkəzinə çevrildi?

Sinqapurun coğrafi mövqeyi onun ən böyük üstünlüklərindən biriydi. Asiya ilə Avropanı birləşdirən mühüm dəniz yollarının yaxınlığında yerləşməsi ölkəyə beynəlxalq ticarətdə xüsusi imkanlar yaradırdı. Hökumət bu üstünlükdən istifadə edərək liman infrastrukturunu inkişaf etdirdi. Sinqapur tədricən dünyanın ən mühüm dəniz nəqliyyatı və logistika mərkəzlərindən birinə çevrildi. Bununla yanaşı, ölkə maliyyə xidmətlərini, sığorta sektorunu, beynəlxalq bankçılığı və texnologiya sahələrini inkişaf etdirdi. Xarici şirkətlər üçün etibarlı biznes mühiti yaradılması Sinqapurun beynəlxalq nüfuzunu artırdı.

Bu gün ölkə dünyanın ən mühüm maliyyə və ticarət mərkəzlərindən biridir. Sinqapurun iqtisadi göstəriciləri də onun keçdiyi yolu aydın göstərir: Dünya Bankının məlumatlarına əsasən, adambaşına düşən ümumi daxili məhsul 1965-ci ildəki bir neçə yüz ABŞ dolları səviyyəsindən sonrakı onilliklərdə on minlərlə dollara yüksəlib. Təbii sərvətləri olmayan bir ölkənin bu nəticəyə çatması, şübhəsiz, diqqətəlayiq hadisədir.



Kəramət QƏNBƏROV
Beynəlxalq hüquq üzrə ekspert

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressİnformMMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN





Balaca ürəklərin böyük hüquqları

Uşaqları qorumaq gələcəyi qorumaqdır...

Uşaqlar dünyaya gələrkən özləri ilə yalnız kiçik əllərini, məsum baxışlarını və böyük arzularını gətirmirlər. Onlar həm də qorunmaq, sevilmək, sağlam böyümək, təhsil almaq və öz fikirlərini sərbəst ifadə etmək hüququ ilə doğulurlar. Bir uşağın xoşbəxtliyi bəzən təhlükəsiz bir evdə, bəzən məktəbə gedən yolda, bəzən də fikirlərinin böyüklər tərəfindən diqqətlə dinlənilməsində gizlənir. Lakin dünyanın hər yerində uşaqlar bu imkanlarla eyni dərəcədə əhatə olunmayıblar. Müharibələr, yoxsulluq, zorakılıq, istismar və ayrı-seçkilik milyonlarla uşağın uşaqlığını əlindən alır. Məhz buna görə də uşaq hüquqları yalnız hüquqi sənədlərdə təsbit olunan müddəalar deyil, bəşəriyyətin gələcək nəsillər qarşısında daşıdığı mənəvi məsuliyyətdir.

Hər il noyabrın 20-də qeyd olunan Dünya Uşaq Hüquqları Günü bu məsuliyyəti bir daha xatırladır. Bu gün sadəcə təqvimdəki əlamətdar tarix deyil, uşaqların səsinin eşidilməsi, onların ehtiyaclarının nəzərə alınması və daha təhlükəsiz gələcək naminə atılan addımların qiymətləndirilməsi üçün mühüm fürsətdir.

Uşaqlar üçün yazılan tarixi sənəd

1989-cu il noyabrın 20-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası Uşaq Hüquqları haqqında Konvensiyanı qəbul edib. Bu sənəd uşaqları yalnız qayğıya ehtiyacı olan fərdlər kimi deyil, müstəqil hüquq və azadlıqlara malik şəxsiyyətlər kimi tanıyan mühüm beynəlxalq hüquqi sənəddir.

Konvensiyanın əsas məqsədi uşaqların yaşamaq, inkişaf etmək, müdafiə olunmaq və cəmiyyətin həyatında iştirak etmək hüquqlarını təmin etməkdir. Sənədin diqqətçəkən cəhətlərindən biri odur ki, burada uşağın mənafeyi bütün qərar və tədbirlərdə əsas meyar kimi qəbul edilir. Yəni uşaqla bağlı hər hansı qərar verilərkən ilk növbədə onun təhlükəsizliyi, rifahı və gələcəyi düşünülməlidir.

Bu konvensiya dünya dövlətlərinə uşaqlar qarşısında üzərlərinə götürdükləri öhdəlikləri xatırladan, eyni zamanda onların müdafiəsi üçün ortaq hüquqi çərçivə yaradan mühüm sənəddir.

Uşaq hüquqları yalnız məktəbə getməkdən ibarət deyil

Uşaq hüquqları haqqında danışarkən ilk növbədə təhsil yada düşsə də, bu anlayış daha geniş məna daşıyır. Hər bir uşağın doğulduğu andan etibarən adı və vətəndaşlığı olmaq, ailə mühitində böyümək, tibbi yardım almaq, istirahət etmək, oyun oynamaq və təhlükəsiz şəraitdə yaşamaq hüququ var. Bununla yanaşı, uşaqların öz düşüncələrini ifadə etməsi, onları maraqlandıran məsələlərdə fikirlərinin dinlənilməsi də Konvensiyanın mühüm prinsiplərindəndir. Böyüklər bəzən uşaqların fikirlərini kifayət qədər ciddi qəbul etmirlər. Halbuki uşağın yaşına və yetkinlik səviyyəsinə uyğun olaraq onun düşüncəsinə hörmətlə yanaşmaq hüquqların qorunmasının vacib şərtidir.

Unudulmamalıdır ki, hüquqlar birbirindən ayrı deyil. Təhsil ala bilməyən, zorakılıqdan qorunmayan və sağlamlıq xidmətlərinə çıxışı olmayan uşağın sağlam inkişafından danışmaq çətindir.

Rəqəmsal dünyada uşaqların yeni müdafiə ehtiyacı

Müasir dövrdə uşaqların həyatı internet və sosial şəbəkələrlə sıx bağlıdır. Rəqəmsal texnologiyalar onlara öyrənmək, ünsiyyət qurmaq, yeni biliklər əldə etmək və yaradıcılıqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradır. Ancaq bu imkanlarla yanaşı, yeni təhlükələr də meydana çıxır.

Kiberzorakılıq, şəxsi məlumatların icazəsiz paylaşılması, aldadıcı məzmun, onlayn istismar və yaşa uyğun olmayan informasiyalar uşaqların təhlükəsizliyini təhdid edə bilər. Belə şəraitdə uşaqlara yalnız internetdən istifadəni məhdudlaşdırmaq deyil, rəqəmsal savadlılıq aşılamaq da vacibdir. Valideynlər uşaqların onlayn fəaliyyətinə diqqət yetirməli, onları qorxutmadan maarifləndirməli, müəllimlər isə təhlükəsiz internet davranışlarını tədris prosesinin bir hissəsinə çevirməlidirlər. Əsas məqsəd uşaqları rəqəmsal dünyadan uzaqlaşdırmaq yox, həmin dünyada özlərini qorumağı bacaran fərdlər kimi yetişdirməkdir.



Azərbaycanda uşaq hüquqları: hüquqi təminatlardan real qayğıya

Azərbaycanda uşaqların hüquq və mənafelərinin müdafiəsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Ölkəmiz 1992-ci ildə BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına qoşulmaqla bu sahədə beynəlxalq öhdəliklər götürüb. Azərbaycan Respublikasının Konstitusiyası, eləcə də 1998-ci ildə qəbul edilmiş "Uşaq hüquqları haqqında" Qanun uşaqların hüquqlarının qorunması üçün hüquqi əsaslar yaradır.

Bu qanunvericilik bazası uşaqların sağlamlığının, təhsilinin, sosial müdafiəsinin, ailə mühitində yaşamaq və zorakılığın bütün formalarından qorunmaq hüquqlarının təmin edilməsini nəzərdə tutur. Eyni zamanda, valideynlərin, dövlət orqanlarının və cəmiyyətin uşaqlar qarşısında məsuliyyətini müəyyənləşdirir.

Azərbaycanda uşaqların təhsilə cəlb olunması, sağlamlıq xidmətlərindən yararlanması, sosial müdafiəsinin gücləndirilməsi, valideyn himayəsindən məhrum olmuş uşaqların qayğı ilə əhatə edilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Uşaqların hüquqlarının müdafiəsində dövlət qurumları ilə yanaşı, təhsil müəssisələrinin, ailələrin, ictimai təşkilatların və medianın da üzərinə mühüm vəzifələr düşür.

Bununla belə, hüquqi təminatların mövcudluğu ilə yanaşı, onların gündəlik həyatda real şəkildə həyata keçirilməsi də vacibdir. Hər bir uşağın keyfiyyətli təhsil alması, təhlükəsiz mühitdə böyüməsi, zorakılıqdan qorunması və bərabər imkanlara sahib olması daim diqqətdə saxlanılmalıdır. Xüsusilə, sosial baxımdan həssas ailələrdə böyüyən, əlilliyi olan, valideyn himayəsindən məhrum edilmiş və xüsusi qayğıya ehtiyacı olan uşaqların müdafiəsi daha həssas yanaşma tələb edir.

Yeganə BAYRAMOVA

2026-cı ildə dünyanı təəccübləndirən 10 qeyri-adi Ginnes rekordu



2026-cı il dünyanın müxtəlif ölkələrində qeydə alınan qeyri-adi Ginnes rekordları ilə yadda qalıb. Paltar asa bilən itdən tutmuş, tapmaca kubunu saniyələr ərzində həll edən robota qədər fərqli nailiyyətlər rekordlar kitabına daxil edilib.

AZƏRTAC "Kazinform"a istinadla xəbər verir ki, rekordlar arasında ABŞ-dan olan "Java" adlı itin bir dəqiqədə paltar ipinə səkkiz sancaq bağlaması xüsusi maraq doğurub. İngiltərədə isə bir saat ərzində 5956 cüt corab paltaryuyan maşınlara yerləşdirilərək yeni rekord müəyyənləşdirilib.

Kolumbiyalı idmançı Nestor Santyago Qonsales Valero əlləri üzərində 1 saat 15 dəqiqə 13 saniyə dayanaraq əvvəlki rekordu yeniləyib. ABŞ-da 804 nəfərin dinozavr geyimində bir araya gəlməsi də ilin qeyri-adi hadisələrindən olub.

Digər maraqlı nailiyyətlərdən biri britaniyalı ailənin 11 min balqabaq və digər tərəvəzlərdən məşhur təbiətşünas Devid Attenboronun portretini hazırlaması olub. ABŞ-dan olan baytar Metyu Pauers isə cəmi bir dəqiqədə jeledən hazırlanmış 48 ədəd konfeti yeyərək rekorda imza atıb.

Massaçusets ştatında yetişdirilən Hellouin balqabağının çəkisi 1431,5 kiloqrama çatıb. Qazaxıstanda 21 ölkədən 2415 iştirakçının qatıldığı süni intellekt hakatonu da Ginnesin Rekordlar Kitabına düşüb.

İlin texnoloji nailiyyətlərindən biri isə Yeni zelandiyalı mühəndislərin hazırladığı robot olub. Robot 4x4x4 ölçülü tapmaca kubunu cəmi 9,8 saniyəyə həll edib.

Qeyd edək ki, Ginnesin Rekordlar Kitabı Günü hər il noyabrın 19-da qeyd olunur. Bu ənənənin əsası 2004-cü ildə qoyulub.

Yaddaşı bərpa edən burun damcısı hazırlanıb



Avstraliyanın Sidney Universitetinin alimləri yaşlanma ilə bağlı yaddaş itkisini bərpa edən və Altsheymer xəstəliyinin inkişafını ləngidə bilən eksperimental burun damcıları hazırlayıblar.

AZƏRTAC "Advanced Science" elmi jurnalında dərc olunmuş tədqiqatın nəticələrinə istinadən xəbər verir ki, yeni terapiya beyində neyronların sağlamlığını və sağ qalmasını təmin edən BDNF zülalının sintezini stimullaşdıran mRNT texnologiyasına əsaslanır.

Tədqiqatçıların sözlərinə görə, preparatın burun vasitəsilə yeridilməsi dərman maddələrinin beyinə keçməsinə mane olan qan-beyin baryerini cərrahi müdaxilə olmadan aşmağa imkan verir. Yaşlı və Altsheymer modeli tətbiq edilmiş laboratoriya siçanları üzərində aparılan sınaqlar göstərib ki, burun damcıları heyvanlarda öyrənmə qabiliyyətini, məkan yaddaşını və obyektləri tanıma funksiyasını əhəmiyyətli dərəcədə yaxşılaşdıraraq onların koqnitiv göstəricilərini gənc fərdlərin səviyyəsinə çatdırıb.

Alimlər qeyd edirlər ki, bu yanaşma beyindəki zərərli zülal yığıntılarını təmizləmək əvəzinə, birbaşa neyronların özünü gücləndirməyə və onlar arasındakı əlaqələri bərpa etməyə yönəlib. Gələcəkdə bu texnologiya insanlarda Altsheymer xəstəliyinin və digər neyrodegenerativ pozuntuların müalicəsində yeni istiqamət açа bilər.

İtmişdir

Az Group Sığorta Agentliyi MMC-yə verilmiş 16 may 2019-cu il tarixli, SA-0150 nömrəli lisenziya itirilmişdir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4308
Sifariş: 1528
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova